Səfər . . . 2
Pasport və viza . . . 2
Qeyri-şəri və qeyri-qanuni səfər . . . 3
Müsafir namazı . . . 4
Səfərdə namaz vaxtlarının təyin edilməsi . . . 6
Səfərdə namaz məkanı . . . 8
Kişi və qadın ünsiyyətinin hökmləri . . . 9
Yeməklər və içkilər . . . 11
“Halal” nişanı olan məkanların yeməklərindən istifadə etmək . . . 11
Fabrikat qidalar . . . 12
Hazır yeməklərin təqdim olunduğu restoranlar . . . 16
Paklıq və napaklıq məsələləri . . . 20
Namaz . . . 23
Namazın hökmləri və şərtləri . . . 23
Namazların vaxtı . . . 24
Qiblənin hökmləri . . . 25
Namaz məkanı . . . 27
Məscid . . . 28
Namaz paltarı . . . 29
Namazın vacib əməlləri . . . 30
Camaat namazı . . . 31
Cümə namazı . . . 32
Qəza namazı . . . 33
Alğı-satqının hökmləri . . . 34
Müxtəlif məsələlər . . . 38

## Pasport və viza

### Qadının hicabsız fotoşəkli

**1. Sual:** **Mənim həyat yoldaşım təhsilini davam etdirmək üçün Fransanın universitetlərindən birinə qəbul olmuşdur. Fransa ölkəsinə gedə bilmək üçün biz bu ölkənin səfirliyindən viza almalıyıq. Fransa səfirliyinin viza üçün tələb etdiyi sənədlərdən biri də qadının baş örtüsüz fotoşəklidir. Nəzərə alsaq ki, bu fotoşəkli Fransa səfirliyinə vermədiyimiz təqdirdə bizə viza verilməyəcək və nəticədə, mənim həyat yoldaşım təhsilini davam etdirə bilməyəcəkdir, onun baş örtüsüz fotoşəkil çəkdirib Fransa səfirliyinə verməsinin şəri baxımdan iradı vardırmı?**

**Cavab: Suala əsasən, əgər fotoşəkli çəkən şəxs qadın və ya sizin həyat yoldaşınızın məhrəmlərindən biri olsa, bunun iradı yoxdur.**

**2. Sual:** **Bəzi ölkələrdə pasport və ya şəxsiyyət vəsiqəsi almaq üçün dövlət öz vətəndaşlarını hicabsız fotoşəkil çəkdirməyə məcbur edir. Parikdən istifadə etməyə və ya fotoşəklin qadın tərəfindən çəkilməsinə imkan verilmir. Suallarım bunlardır:**
**1) Belə bir vəziyyətdə əgər fotoşəklin qadın tərəfindən çəkilməsi mümkün olmazsa, mənim vəzifəm nədir?**
**2) Ölkədən çıxış-giriş zamanı bileti təsdiqləyən və ya pasportu yoxlayan hava limanı işçisi olan kişi mənim hicabsız fotoşəklimi görür. Burada mənim vəzifəm nədir?**
**3) Yuxarıdakı iki sualı nəzərə alaraq, əgər Allah evini və ya başqa ziyarətgahları ziyarət etmək istəsəm, bu səfərlərə çıxmağım haramdırmı?**

**Xahiş edirəm ki, bu məsələ müxtəlif ölkələrdə yaşayan dindarların problemləri və bu ölkələrin sərt qanunları nəzərə alınaraq diqqətlə araşdırılsın və cavablandırılsın.**

**Cavab:**
**1-3) Əgər fotoşəkli qadın çəksə və ya pasport almaq istəyən qadının məhrəmi çəksə, bu fotoşəklin pasporta vurulmasının və zərurət halında naməhrəmin ona baxmasının – əlbəttə, əgər bu işin hansısa bir fəsadı olmazsa – iradı yoxdur. Bu pasport ilə ölkədən xaric olmağın, hətta həcc ziyarətinə və ya başqa ziyarətgahlara getməyin maneəsi yoxdur.**

## Qeyri-şəri və qeyri-qanuni səfər

### Sərhəddən qanunsuz şəkildə keçmək

**3. Sual:** **Ərbəinə bir neçə gün qalmış ziyarətə getmək istəyənlərdən viza tələb olunmur. Viza almaq üçün maddi imkanı olmayan şəxs həmin günlərdə ziyarətə gedə bilərmi? Bu günlərdə ziyarətə gedən şəxsin səfərinin və ziyarətinin hökmü nədir?**

**Cavab: Həmin günlərdə İraq ölkəsinə vizasız daxil olmaq üçün rəsmi qadağa olmadığı təqdirdə, bunun iradı yoxdur.**

### Qeyri-qanuni səfər

**4. Sual:** **Bəzi şəxslər xarici ölkələrin səfirliklərinin möhür və imzasını saxtalaşdırır və bu yolla ayrı-ayrı şəxslər üçün viza çıxararaq, qarşılığında pul alırlar. Hətta bəzən Məkkəyə getmək istəyənlər üçün vizanı saxtalaşdırırlar. Bu viza bəzən yaxşı işlər, bəzən də şəriətə zidd işlər üçün istifadə olunur. Bu məqamı da əlavə edək ki, bəzi hallarda saxta viza ilə sərhədi keçən şəxslər təhlükə ilə üzləşir və sərhəddə həbs olunurlar. Bu yolla qazanılan pul halaldır, yoxsa haramdır?**

**Cavab: Bu işə icazə verilmir və bu işin qarşılığında alınan pul haramdır.**

### Qaçaqmalçılıq

**5. Sual:**
**1) Ölkənin limanlarından birindən qaçaq mal gətirmək məqsədilə səfər etmək günah səfəri hesab olunurmu?**
**2) Kişilərin istifadəsi üçün düzəldilən qızılların alğı-satqısı üçün səfər etmək günah səfəri hesab olunurmu?**
**3) Şəri hökmlər çərçivəsindən kənar bir şəkildə pul krediti götürmək üçün səfər etmək günah səfəri hesab olunurmu?**

**Cavab:**
**1 və 3) Bu səfərlər günah səfəri hökmündədir.**
**2) Əgər bu qızıllar sırf kişilərin istifadəsi üçün olarsa, bu səfər günah səfəri hesab olunacaqdır.**

### Səfərdə namazın vaxtında qılınmasına çətinlik yaratmaq

**6. Sual:** **Mən xarici ölkəyə səfər edirəm. Avtobus sübh namazı üçün dayanmır. Mən oturacağımda əyləşən halda namaz qıla bilərəmmi? Yoxsa bu səfərə ümumiyyətlə getməməliyəm?**

**Cavab: Ümumiyyətlə, sərnişinlər namaz vaxtının keçəcəyindən qorxduqları təqdirdə sürücüdən istəməlidirlər ki, namaz qılmaq üçün uyğun bir yerdə dayansın. Sürücü də sərnişinlərin istəyinə əməl etməlidir. Əgər hansısa bir səbəbə görə avtobusu dayandırmaq mümkün olmazsa, sərnişinlər namaz vaxtının keçəcəyindən qorxduqları təqdirdə namazı avtobusda qılmalı və imkan daxilində qiblə istiqamətinə, qiyam, rüku və səcdələrə riayət etməlidirlər. Bunu da qeyd edək ki, əgər səfərə getmək günah etməklə, məsələn, namazın şərtlərini tərk etmək kimi bir günah ilə yanaşı olarsa, zərurət olmadan bu səfərə getmək icazəli deyildir.**

# Müsafir namazı

**7. Məsələ:** **Dördrəkətli namazlar səfərdə iki rəkət, yəni qəsr qılınır, əlbəttə, bu şərtlə ki, səfər edərkən qət edilən məsafə səkkiz fərsəxdən, təxminən 41 kilometrdən az olmamalıdır. Bu məsafə həm bir istiqamətdə (gediş istiqamətində), həm də gediş-qayıdış birlikdə hesablana bilər.**[1]

## Rahat və çətinliyi olmayan səfərlərdə müsafir namazı

**8. Sual:** **Hazırkı dövrdə səfərlərin çox rahat həyata keçdiyini nəzərə alaraq, müsafir namazı yenə də qəsr qılınmalıdırmı?**

**Cavab: Bu hökm baxımından hazırkı dövr ilə keçmiş dövr arasında fərq qoyulmur.**

## Bir yerdə on gün qalmaq

**9. Məsələ:** **Müəyyən bir yerdə ən azı on gün qalmaq niyyətində olan və ya orada ən azı on gün qalacağını bilən müsafir şəxs həmin yerdə namazlarını tam qılmalıdır.**

**10. Məsələ:** **Müəyyən bir yerdə on gün qalmaq niyyətində olan müsafir şəxs əgər həmin yerdə on gündən çox qalsa, orada qaldığı müddətdə namazlarını tam qılmalıdır və onun yenidən niyyət etməsinə ehtiyac yoxdur.**

**11. Məsələ:** **Müəyyən bir yerdə tərəddüdlə qalan, yəni orada qalacağı, yoxsa gedəcəyi məlum olmayan müsafir şəxs otuzuncu gündən sonra orada qaldığı müddətdə namazlarını tam qılmalıdır.**

**12. Məsələ:** **Ramazan ayında namazı qəsr qılan müsafir şəxs oruc tutmamalıdır. Amma əgər namazı tam qılırsa, məsələn, müəyyən bir yerdə on gün qalmağı qərara alıbsa və ya səfər etmək onun peşəsidirsə, oruc tutmalıdır.**

## İş səfəri

**13. Məsələ:** **Peşəsi səfər etmək olan şəxslər, məsələn, pilot, gəmiçi və şəhərdən kənara səfər edən sürücülər, yaxud da işi səfərdə olan şəxslər, məsələn, təyyarənin, gəminin və qatarın işçiləri səfərdə namazı tam qılmalı, oruc da tutmalıdırlar.**

## Tərəxxüs həddi

**14. Məsələ:** **Vətənindən yola düşən və şəri məsafəni qət etmək niyyətində olan müsafir şəxs müəyyən bir məsafəni qət etdikdən və öz vətənindən müəyyən bir həddə uzaqlaşdıqdan sonra namazını qəsr qıla bilər. Həmçinin səfərdən geri qayıdarkən həmin həddə çatdıqda namazını tam qılmalıdır. Bu hədd "tərəxxüs həddi" adlanır. Amma səfərdən geri qayıdarkən tərəxxüs həddi ilə şəhərin girəcəyi arasındakı məsafədə namazı həm qəsr, həm də tam qılması ehtiyat-müstəhəbə müvafiqdir. Tərəxxüs həddini təyin etməyin meyarı odur ki, səfərə yola düşən şəxs şəhərdə adi səslə və səsucaldansız deyilən azanın səsini eşitməyəcək bir məsafədə şəhərin sonuncu evlərindən uzaqlaşır, istər şəhərin divarlarını görsün, istərsə də görməsin.**

## Bir-birinə qovuşan şəhərlərdə tərəxxüs həddi

**15. Sual:** **Almaniyada və Avropanın bir sıra ölkələrində bəzi şəhərlər arasındakı məsafə (şəhərin çıxışını və girişini göstərən lövhələrin qoyulduğu yerlər arasındakı məsafə) bəzən yüz metr belə olmur. Hətta iki şəhərin bəzi evləri və yolları bir-birinə tam birləşib. Bu şəhərlərdə tərəxxüs həddi necə təyin olunur?**

**Cavab: Bir şəhər digər şəhərə ürfə görə "bir şəhər" hesab olunan şəkildə birləşdiyi təqdirdə, bu iki şəhər "bir şəhərin iki məhəlləsi" hökmündə olur və bir şəhərdən digərinə getmək səfər etmək hesab olunmur. Buna görə də tərəxxüs həddinə ehtiyac qalmır.**

## Günah səfəri

**16. Sual:** **Əgər bir şəxs getmək istədiyi səfərdə günah edəcəyini və haram əməl yerinə yetirəcəyini bilərsə, onun namazı qəsrdir, yoxsa tamdır?**

**Cavab: Əgər səfər və səfərin hədəfi günah olmasa, amma səfərdə haram bir əməl (məsələn, qeybət etmək və ya şərab içmək kimi haram əməl) yerinə yetirilsə, bu səfər "günah səfəri"**

**hökmündə deyildir və namaz qəsrdir. Amma əgər haram əməl səfər boyunca (çox az bir vaxt istisna olmaqla) yerinə yetirilsə, belə ki, səfərin günah etməklə keçdiyi deyilsə, bu halda ehtiyata görə, namaz həm qəsr, həm də tam qılınmalıdır.**

## Səfərdə nafilələrin qılınması

**17. Məsələ: Namazın qəsr qılındığı səfərdə zöhr və əsr namazlarının nafiləsini qılmaq (hətta savab ümidilə olsa belə) icazəli deyildir. Amma işa namazının nafiləsini (vuteyrə namazını) savab ümidilə qılmağın iradı yoxdur.**

---

[1] Sual-cavab şəklində deyil, məsələ şəklində qeyd edilən şəri hökmlər "Namaz və oruc risaləsi"ndən əxz olunub.

## Səfərdə namaz vaxtlarının təyin edilməsi

### Təyyarədə şəri üfüqün təyin edilməsi

**18. Sual:** **Mən illər sonra İrana səfər etmək niyyətindəyəm. Uçuş vaxtı günorta saat 5-dədir. Eniş vaxtı isə gecə saat 2-dədir. Namazı hansı məkanın şəri üfüqü ilə qılmalıyam? İranın, yoxsa başqa bir məkanın şəri üfüqü ilə qılmalıyam?**

**Cavab: Namaz qılmağa hazırlaşdığınız vaxt haradasınızsa, həmin məkanın şəri üfüqü ilə məğrib və işa namazlarını qılmalısınız, baxmayaraq ki, təyyarədəsiniz.**

**19. Sual:**
**1) Mən Tayland ölkəsinə səfər etmək niyyətindəyəm. Uçuş vaxtı gecə saat 11-dədir. Təyyarədə sübh namazımı hansı saatda və hansı şəkildə qılmalıyam?**
**2) Taylandda namaz vaxtlarını, xüsusilə də sübh namazının vaxtını necə təyin edə bilərəm?**

**Cavab:**
**1) Əgər təyyarədə namazın şərtlərinə (o cümlədən bədənin hərəkətsizliyinə və qiblə istiqamətinə) riayət edərək namaz qılmaq mümkün olarsa, namaz vaxtının daxil olduğuna əmin olduqdan sonra (məsələn, havanın işıqlanmasını müşahidə edərək sübh namazının vaxtının daxil olduğuna əmin olaraq) namazı qılmalısınız. Əgər namazın şərtlərinə riayət etmək mümkün olmasa və uçuş başa çatanda namaz vaxtı başa çatmayacaqsa, namazı yubatmalı və uyğun bir yerdə namaz qılmalısınız. Amma əgər namaz vaxtı başa çatacaqdırsa, namazı təyyarədə qılmalı və mümkün qədər namazın şərtlərinə riayət etməlisiniz.**
**2) Orada olan şiə din alimlərindən və ya İran Mədəniyyət Mərkəzindən soruşa bilərsiniz.**

**20. Sual:** **Əgər uçuş Yerin hərəkət istiqamətinin əks istiqamətində fasiləsiz olaraq 15 saatdan çox davam edərsə, belə ki, uçuş müddətində Yerin yalnız gündüz olan hissəsində olsaq, həmçinin (səfərin başlandığı yerin) sübh namazının vaxtı ilə (səfər edilən yerin və ya hazırda təyyarənin olduğu məkanın) şəri zöhr vaxtı arasındakı fasilə 12 saatdan çox olsa, zöhr namazını (sübh namazı ilə zöhr namazı arasındakı zaman fasiləsinin çox olduğunu nəzərə alaraq) hansı vaxtda qılmalıyıq?**

**Cavab: Olduğunuz yerdə – getdiyiniz şəhərdə və ya təyyarənin daxilində – zöhr namazının vaxtı daxil olduqda, namaz vaxtı başa çatmamış namazı qılmalısınız.**

**21. Sual:** **Təyyarə ilə olan uzunmüddətli səfərlərdə (belə ki, bəzən səfər on saatdan çox çəkir) namaz üçün vəzifəmiz nədir? Məsələn, mən zöhr vaxtı Amerikadan yola düşürəm və on saat sonra Avropaya çatıram, halbuki orada səhər saat 8-dir. Bu, namazın bir sutkası deməkdir. Mən indi hansı namazları hansı vaxtlarda qılmalıyam?**

**Cavab: Uçuş zamanı hansı namazın vaxtını müəyyən etmək mümkün olarsa, həmin namazı namazın şərtlərinə riayət edərək təyyarədə qılmalısınız.**

### Namaz vaxtı yenidən daxil olduğu zaman qılınan namazın təkrar qılınmasına ehtiyacın olmaması

**22. Sual:** **Qitələrarası səfərlərdə təxminən 17 saat təyyarədə oluram. Səfər etdiyim yerə çatdığım zaman ya vaxtı hələ çatmayan bəzi namazlar indi qəza olmuşdur, ya da qıldığım bəzi namazların vaxtı yenidən daxil olmuşdur. Bu iki halda namazların hökmü nədir?**

**Cavab: Birinci halda – yəni səfərin başlandığı şəhərdə namaz vaxtının hələ daxil olmadığı halda – siz təyyarədə namaz vaxtı daxil olduqdan sonra namazı qılmalısınız. Əgər namazı qılmasanız, səfər etdiyiniz yerə çatdıqda bu namazın qəzasını qılmalısınız. İkinci halda –**

**yəni səfərin başlandığı şəhərdə, məsələn, sübh namazını qıldığınız halda – səfər etdiyiniz yerə çatdıqda həmin günün sübh namazını qılmağa ehtiyac yoxdur.**

**23. Sual:** **Təyyarədə olarkən şəri zöhr vaxtı daxil olduqda zöhr və əsr namazları qılınır. Fərz edin ki, Dubaydan Braziliyaya səfər edilir və təyyarənin sürəti Yerin fırlanma sürətindən çoxdur. Uçuş bir müddət davam etdikdən sonra sərnişin yeni bir zöhr vaxtına daxil olur. Bu halda o, zöhr və əsr namazlarını yenidən qılmalıdırmı? Yoxsa qıldığı zöhr və əsr namazları kifayət edir?**

**Cavab: Əgər həmin günün zöhr vaxtıdırsa, namazı yenidən qılmağa ehtiyac yoxdur.**

## Gecə olmayan məntəqələrdə sübhü təyin etmək

**24. Sual:** **Avropanın şimal məntəqələrində Günəş qürub etdikdən sonra da səma işıqlı olur, belə ki, "sadiq fəcr"in doğmasını təyin etmək mümkün deyildir. Əlbəttə, Günəş doğmamışdan bir saat yarım öncə səmanın işıqlılığı get-gedə artmağa başlayır. Bu müddətdə sübh namazını qılmaq olarmı?**

**Cavab: Səmanın işıqlılığı artmağa başladığı andan etibarən gecə başa çatır və sübh başlanır. Bu vaxt sübh namazının vaxtıdır. Amma əgər işıqlılığın artdığına şəkk olunarsa, namazı yubatmaq və sübh olduğuna yəqin etdikdə namazı qılmaq lazımdır.**

## Səfərdə namaz məkanı

### Təyyarədə qılınan namazın kifayət etməsi

**25. Sual:** **Əgər uçuş müddətində namaz vaxtı daxil olsa, təyyarə eniş etdikdən sonra namaz vaxtının hələ başa çatmadığını nəzərə alaraq, təyyarədə qılınan namaz kifayət edirmi, yoxsa yenidən qılınmalıdır?**

**Cavab: Əgər təyyarədə namazın şərtlərinə, o cümlədən bədənin hərəkətsizliyinə və qiblə istiqamətinə riayət etmək mümkün olubsa, qılınan namazı yenidən qılmaq lazım deyildir. Əks halda, gözləmək və təyyarə eniş etdikdən sonra namazı bütün şərtlərinə riayət edərək qılmaq lazımdır.**

### Təyyarənin qadağan olunan məkanında namaz qılmağın hökmü

**26. Sual:** **Əksər uçuşlarda namaz vaxtı, xüsusilə də sübh namazının vaxtı təyyarədə olduğumuz zaman daxil olur və başa çatır. Məsələn, əgər uçuş şərqdən qərbə doğru olarsa, təyyarənin Yerin hərəkətinin əks istiqamətində hərəkət etdiyini nəzərə alaraq, sübh azanı ilə Günəşin doğması arasında yalnız yarım saat vaxt olur. Məlum məsələdir ki, bu yarım saat ərzində yüz sərnişinin hamısı təyyarənin boş məkanlarında namaz qıla bilməyəcəklər. Digər tərəfdən təyyarələrin çoxunda, ümumiyyətlə, namaz qılmaq üçün yer təyin olunmayıbdır. Yəni təyyarə o qədər kiçikdir ki, təyyarənin salonunda boş yer, demək olar ki, yoxdur. Yaxud da boş məkanlar yalnız təyyarənin ekipajına aiddir və orada yemək hazırlayırlar. Bu halda ayaq üstə namaz qılmaq üçün yalnız iki məkan qalır. Biri, "təcili çıxış" qapısının qarşısındakı məkandır və bu məkanda, adətən, dayanmaq qadağandır. Digəri isə oturacaqların arasındakı dəhlizdir və bu da gediş-gəliş yoludur. Yəni əgər bir şəxs orada dayanıb ayaq üstə namaz qılmaq istəsə, yolu bağlayacaqdır. Odur ki, bu dəhlizdə namaz qılmaq düzgün deyildir. Belə bir şəraitdə təyyarənin ekipajı deyir ki, namazı yalnız öz oturacağınızda əyləşən halda qıla bilərsiniz. Mən də həmişə namazlarımı bu şəkildə qılıram. Amma bu dəfəki uçuşda xarici ölkə vətəndaşı olan bir qadın məndən səccadə aldı və qadağaya əhəmiyyət vermədən "təcili çıxış" qapısının qarşısında namaz qıldı. Əlbəttə, namazı çox müxtəsər və sürətlə qıldı. Həmin zaman kəsimində təyyarənin süqut etməsi və "təcili çıxış" qapısına ehtiyacın olması ehtimalı olduqca aşağı idi. Qadının bu əməli baş stüardessanın etirazına səbəb oldu. Namazdan sonra həm ona, həm də mənə bildirdi ki, təhlükəsizlik baxımından orada dayanmaq sərnişinlərə qadağandır. Sualım budur ki, stüardessanın icazə vermədiyi məkanda namaz qılmaq olarmı? Yəni bilmək istəyirəm ki, onun göstərişinə əhəmiyyət verməyib, namazı mümkün olan yerdə qılmaq lazımdırmı? Yoxsa onun göstərişinə müvafiq olaraq, namazı öz oturacağımda əşləşdiyim halda qılmalıyam? Əgər namazı əyləşdiyimiz halda qılsam, bu namazı yenidən, amma qəzasını uyğun bir yerdə (məsələn, təyyarənin eniş etdiyi hava limanında) qılmaq lazımdırmı? Yoxsa namaz vaxtında qıldığım bu namaz kifayət edir?**

**Cavab: Sualda qeyd edilənləri nəzərə alaraq, namazı təyyarədə tələb olunan qaydalara riayət edərək qılmaq lazımdır. Mümkün qədər qiyam, rüku, səcdə və qibləyə riayət olunmalıdır. Təyyarə hərəkət istiqamətini dəyişdikdə imkan daxilində qiblə istiqamətinə riayət etməlisiniz. Bədən hərəkətdə olduqda qiraət və zikri dayandırmaq lazımdır. Əgər qiblə istiqamətini, hətta başqalarından soruşmaqla olsa belə, təyin edə bilməsəniz, qiblə istiqaməti olduğuna güman etdiyiniz istiqamətə namazı qılın. Əgər qiblə istiqaməti barəsində şəkdə qalsanız və namaz vaxtı da geniş olsa, ehtiyat-vacibə görə, imkan daxilində namazı dörd istiqamətə qılın. Əgər namaz vaxtı geniş olmazsa, hansı istiqamətlərə namazı qılmağa vaxt çatırsa, namazı qılın və namaz düzgündür.**

### Səfərdə oruc tutmaq

**27. Məsələ:** **Səfərdə müstəhəb oruc tutmağa icazə verilmir. Yalnız Mədinə şəhəri istisna təşkil edir, belə ki, müsafir şəxs istəyinin həyata keçməsi üçün orada üç gün müstəhəb oruc tuta bilər.**

## Kişi və qadın ünsiyyətinin hökmləri

### Naməhrəmə baxmaq

**28. Sual:** Xarici ölkələrə səfərlərdə hicabsız qeyri-müsəlman qadınlara cinsi ləzzət hissi olmadan baxmaq haramdırmı?

**Cavab: Qeyri-müsəlman qadınların bədəninin adətən örtmədikləri hissələrinə (məsələn, baş, üz, boyun, əllər və baldırlara) cinsi ləzzət hissi olmadan baxmağın iradı yoxdur. Bundan qeyri hissələrə baxmaq isə ehtiyata görə, icazəli deyildir. Amma cinsi ləzzət hissi ilə baxmaq birmənalı olaraq icazəli deyildir.**

### Naməhrəmin fotoşəklinə və videogörüntüsünə baxmaq

**29. Sual:** Bəzi gənclər pis görüntülərə baxır və müəyyən fikirlərlə özlərinə haqq qazandırmağa çalışırlar. Bu əməlin hökmü nədir? Əgər bu görüntülərə baxmaq insanın şəhvətini bir qədər sakitləşdirərsə və harama düşməyin qarşısını almaqda təsirli olarsa, bu əməlin hökmü nədir?

**Cavab: Əgər şəxs bu görüntülərə cinsi ləzzət hissi ilə baxarsa və ya bu görüntülərə baxmağın şəhvətin həyəcanlanması ilə nəticələnəcəyini bilərsə, yaxud da günah və fəsad qorxusu mövcud olarsa, bu əməl haramdır. Bu görüntülərə baxmaqla insanın başqa bir harama düşməyəcəyini əsas gətirmək bu haramı icazəli etmir.**

### Xarici ölkələrin televiziya kanallarını izləmək

**30. Sual:** Qeyri-müsəlman ölkələrində televiziya kanallarını izləməyin hökmü nədir?

**Cavab: Əgər pis görüntülər olmazsa, həmçinin hansısa bir fəsadı, günaha düşmək və ya əqidədən azmaq qorxusu mövcud olmazsa, bu kanalları izləməyin maneəsi yoxdur. Əks halda, buna icazə verilmir.**

**31. Sual:** Xarici ölkələrin istehsal etdikləri cizgi filmlərini izləmək, onların nəşr etdikləri kitabları və romanları oxumaq (nəzərə alaq ki, onların əksəriyyətinin sujet xətti yanlış inanclardır, hətta bəzən şirkə qarışmış inanclardır) icazəlidirmi?

**Cavab: Əqidədən azmaq qorxusu mövcud olduğu təqdirdə, buna icazə verilmir.**

**32. Sual:** Mən idarə işçisiyəm. İş yerimdə internetdən ehtiyac miqdarında şəxsi istifadə edə bilərəmmi?

**Cavab: Ümumi əmlakdan şəxsi istifadəyə icazə verilmir və istifadə etdiyi təqdirdə, şəxs borclu qalır. Yalnız şəri və qanuni baxımdan buna icazə verməyə səlahiyyəti çatan məsul şəxsin icazəsi ilə bunu etmək olar.**

**33. Sual:** Səfər etdiyimiz xarici ölkənin internetindən istifadə etmək və onların televiziya kanallarını izləməyin hökmü nədir?

**Cavab: Əgər haram bir işi özündə ehtiva etməzsə və hansısa bir fəsadı olmazsa, həmçinin qanunlara zidd olmazsa, bunun öz-özlüyündə iradı yoxdur.**

### Naməhrəm ilə ünsiyyətin hüdudları

**34. Sual:** İctimai yerlərdə müsəlman kişi və qadınların ünsiyyətinin hüdudlarını açıqlamanızı xahiş edirəm.

**Cavab: Şəri vəzifə daşıyan hər bir qadın və kişiyə vacibdir ki, əks cins ilə ünsiyyətdə olarkən İslam şəriətinin qanun-qaydalarına dəqiqliklə riayət etsinlər, həmçinin günaha**

düşməyə və ya fitnə-fəsada səbəb olan işlərdən ciddi surətdə uzaq olsunlar.

## Naməhrəm ilə xəlvət yerdə olmaq

**35. Sual:** **Hansı halda naməhrəm kişi və qadın bir yerdə ola bilməzlər?**

**Cavab: Əgər naməhrəm kişi və qadın xəlvət bir yerdə olsalar, belə ki, orada heç kim olmasa və heç kim ora daxil ola bilməsə, harama düşəcəklərindən qorxduqları təqdirdə oranı tərk etməlidirlər.**

**36. Sual:** **İşlədiyimiz xarici ölkədə oranın vətəndaşı olan qadın ilə istehsal obyektlərinin, laboratoriyaların və ya xüsusi məkanların kənar şəxslərin girişi qadağan olan hissələrində işləməyin hökmü nədir?**

**Cavab: Əgər harama düşmək ehtimalı olarsa, buna icazə verilmir.**

## Eyni ayaqyolundan istifadə etmək

**37. Sual:** **Bəzi idarələrdə və şirkətlərdə işçi kişi və qadınlar eyni ayaqyolundan istifadə edirlər. Bunun şəri hökmü nədir?**

**Cavab: Əgər günah etmək qorxusu mövcud olmasa və heç bir fəsadı da olmasa, bunun öz-özlüyündə maneəsi yoxdur.**

## Naməhrəmə əl verib görüşmək

**38. Sual:** **Bəzi ölkələrdə kişinin qadına əl verib görüşməsi adi haldır, hətta bu tərzdə görüşməmək bir növ qarşı tərəfə hörmətsizlik hesab olunur. Xahiş edirəm, bu əməlin şəri hökmünü açıqlayardınız?**

**Cavab: Kişinin naməhrəm qadına əl verib görüşməsi haramdır. Əgər siz dini göstərişə əməl etdiyinizi açıqlayaraq bu işdən çəkinsəniz, hörmətsizlik hesab olunmayacaqdır. Müsəlman şəxs şəri vəzifələrə əməl etməyi digər işlərdən öndə tutmalıdır və hər bəhanə ilə vacib əməli tərk etməməli, haram əməli yerinə yetirməməlidir.**

**39. Sual:** **Əgər xarici ölkədə səfərdə olarkən istəmədən naməhrəm qadına əl verib görüşsək, bu əməlin hökmü nədir?**

**Cavab: Əgər bu əməli ixtiyari şəkildə yerinə yetirmisinizsə, haram iş görmüsünüz və buna görə tövbə etməlisiniz. Tövbə günaha görə peşman olmaq və bir daha bu əməli etməməyi ciddi şəkildə qərara almaqla gerçəkləşir.**

## Kişi-qadının birgə olduğu hovuz və saunadan istifadə etmək

**40. Sual:** **Müsəlman şəxsin xarici ölkədə kişi-qadının birgə olduğu hovuz və hamamdan istifadə etməsinin hökmü nədir?**

**Cavab: İcazəli deyildir.**

## “Halal” nişanı olan məkanların yeməklərindən istifadə etmək

**41. Sual:** **Əgər qərb ölkələrində bir restoranın “halal” nişanı olarsa, oranın bütün yeməklərindən istifadə etmək icazəlidirmi?**

**Cavab:** **“Halal” nişanının olması oranın bütün yeməklərindən istifadə etməyi icazəli etmir. Yeməklərin halal olduğuna əminlik hasil olmalıdır. Əgər satıcı müsəlman olarsa və yeməklərin halal olduğunu söyləyərsə və özü də yeməklər ilə halal qida kimi davranarsa, bu halda o yeməklərdən istifadə etməyin maneəsi yoxdur, araşdırma aparmaq da lazım deyildir. Bundan qeyri halda, ət yeməklərində istifadə edilən ətin şəri kəsim olduğu sübuta yetməyənədək, ondan istifadə etmək icazəli deyildir. Amma qeyri-ət yeməklərinin napak və haram olduğuna yəqinlik olmayanadək, onlardan istifadə etməyin maneəsi yoxdur.**

## Fabrikat qidalar

### Qablaşdırılmış qidalardan istifadə etmək

**42. Sual:** **Biz Amerikada universitetdə oxuyuruq. Qarşımıza paklıq-napaklıq məsələlərinə dair suallar çıxır. Xahiş edirik, bizi məlumatlandırasınız. Konservləşdirilmiş və ya qablaşdırılmış qidaları, məsələn, lobya və balıq konservləri, yaxud tomat pastası, yaxud da çörək, kərə yağı, pendir və bu kimi qidaları istifadə etməkdən imtina etməliyikmi? Çünki lobya konservinin hazırlandığı fabrikdə işlədiyimiz zaman özümüz müşahidə etmişik ki, qeyri-müsəlman şəxslərin əli onlara dəyir.**

**Cavab: Ümumiyyətlə, qidaların – istər qablaşdırılmış olsun, istərsə də açıq şəkildə olsun – napaklığı dəqiqləşməyənədək pak və halaldır, onlardan istifadə etmək icazəlidir. Amma əgər bu qidalarda əti halal heyvanın hissələrindən olsa, yalnız həmin heyvanın şəri kəsim olduğu sübuta yetdiyi təqdirdə bu qidalardan istifadə etmək olar.**

### Qablaşdırılmış toyuqlardan istifadə etmək

**43. Sual:** **Şəri kəsim olduğunu bilmədiyimiz qablaşdırılmış toyuğu yemək iradlıdırmı?**

**Cavab: Əgər müsəlmanların bazarından əldə edilərsə, ondan istifadə etməyin iradı yoxdur.**

### Pendir mayası ilə hazırlanan pendirlər

**44. Sual:** **Xarici ölkələrin istehsalı olan pendirlərdə pendir mayası istifadə olunur. Bu maya heyvanların mədəsindən əldə edilir. Mən əvvəllər xaricdə yaşadığım illərdə bu pendirləri yemirdim. Amma ötən il İrana gəldiyim zaman camaatın xaricdən idxal edilən pendirlərdən istifadə etdiklərini gördüm. Bu pendirləri yemək icazəlidirmi?**

**Cavab: Əgər pendir mayasının əti haram olan heyvandan əldə edildiyi və "nəcasət" ilə təmasda olduğu məlum olmasa, bu mayadan istifadə edilərək hazırlanan pendiri yeməyin iradı yoxdur.**

**45. Sual:** **Deyirlər ki, bəzi hallarda əti halal olan, amma şəri kəsim olmayan heyvanın ətini "Bismillah" deyib, yemək olar. Bu söz doğrudurmu?**

**Cavab: Şəri kəsim olmayan heyvanın ətini yemək haramdır və "Bismillah" demək bu ətin halallaşmasına səbəb olmur.**

### Zürafənin ətini yeməyin hökmü

**46. Sual:** **Zürafə otyeyən, gövşəyən heyvandır və inək kimi cütdırnaqlıdır. Zürafə əti halal heyvandırmı?**

**Cavab: Zürafənin ətinin haram olmasına dair sübut yoxdur.**

**47. Sual:** **Əgər yeməyin içərisinə həşərat düşərsə, bu yeməyi yemək iradlıdırmı?**

**Cavab: Həşəratı yeməkdən götürüb, o yeməyi yeməyin iradı yoxdur.**

### Qeyri-müsəlman şəxsin kəsdiyi heyvan

**48. Sual:** **Əgər müsəlman olmayan şəxs şəri kəsimin şərtlərinə riayət edərək heyvanı kəsərsə, bu heyvanın ətini yemək olarmı?**

**Cavab: Qeyri-müsəlmanın kəsdiyi heyvanın əti halal deyildir, baxmayaraq ki, o, şəri kəsimin digər şərtlərinə riayət etmişdir.**

### Əhli-sünnənin kəsdiyi heyvan

**49. Sual:** **Bəzi əhli-sünnə alimləri şəri kəsimdə üzü qibləyə olmağı şərt bilmirlər. Şiələr üçün əhli-sünnənin kəsdiyi heyvanın əti halal hesab olunurmu?**

**Cavab: Suala əsasən, əhli-sünnənin kəsiminin iradı yoxdur və halal hökmündədir.**

## Dəniz məhsulları

**50. Sual:** **Mənim işlədiyim şirkətin Çin və Cənubi Koreya ölkələri ilə sıx əlaqələri vardır, buna görə də mən daim bu ölkələrə səfər edirəm. Bu ölkələrdə ən sağlam yeməklərin balıq, xərçəng, ahtapot və ilbizdən hazırlanan yeməklər olduğunu, digər tərəfdən islami yeməklərin hazırlandığı məkanların olmadığı və ya olsa da, yeməklərin çox baha olduğunu nəzərə alaraq, xahiş edirəm, mənə yol göstərəsiniz. Bu dəniz məhsullarından hazırlanan yeməkləri yemək icazəlidirmi?**

**Cavab: Xərçəng, ahtapot və ilbizin yeyilməsi haramdır. Dəniz heyvanlarından yalnız pulcuqlu balıq və krevetkanın yeyilməsi halaldır, bu şərtlə ki, onların diri tutulduğunu və sudan çıxarıldıqdan sonra öldüyünü, yaxud da tora diri düşüb sonra öldüyünü biləsiniz.**

## Tanınmayan dəniz heyvanlarının yeyilməsi

**51. Sual:** **Qəribə görünüşü olan və hansı növ heyvan olduğu bilinməyən dəniz heyvanlarının yeyilməsi halaldırmı?**

**Cavab: Dəniz heyvanlarından yalnız pulcuqlu balıq və krevetkanın yeyilməsi halaldır.**

## Qeyri-müsəlmanın tutduğu balığı yeməyin hökmü

**52. Sual:** **Qeyri-müsəlman ölkəsində tutulan və ya qeyri-müsəlmanların bazarında satılan balıqlar halaldırmı?**

**Cavab: Əgər pulcuqlu balığın sudan diri tutulduğunu, yaxud da tora diri düşüb sonra öldüyünü bilsəniz, bu halda halaldır.**

## Diri balığı yemək

**53. Sual:** **Diri balığı yemək olarmı?**

**Cavab: Əgər halal balıq olarsa, onu diri halda yeməyin iradı yoxdur.**

## İlanbalığı

**54. Sual:** **İlanbalığının yeyilməsi halaldırmı?**

**Cavab: Halal deyildir.**

## Xərçəng, qurbağa və balinanın yeyilməsi

**55. Sual:** **Xərçəng, qurbağa və balinanın yeyilməsi halaldırmı?**

**Cavab: Halal deyildir.**

## Tərkibində dəniz heyvanlarından olan dərmanlar

**56. Sual:** **Bəzi həblərin tərkibində dəniz süngəri istifadə olunur. Bu həbləri istifadə etmək icazəlidirmi?**

**Cavab: Ümumiyyətlə, dəniz heyvanlarından yalnız pulcuqlu balıq və krevetka halaldır, bundan qeyri heyvanların yeyilməsi halal deyildir. Əgər mütəxəssis və etibarlı həkimin sözlərinə görə müalicə yalnız bu həblərin istifadəsindən asılı olarsa, bu həblərdən zəruri miqdarda istifadə etməyin iradı yoxdur.**

**57. Sual:**

1) Qeyri-müsəlman ölkələrində istehsal olunan bəzi qidaların qablaşdırmasının üstündə belə yazılır: “Bu məhsulun tərkibində sərtdərili heyvanların izləri ola bilər”. Bu cümlədən belə başa düşülür ki, bəzi qida məhsullarının tərkibində bu heyvanların hissələrindən çox az miqdarda mövcud ola bilər, yaxud da ümumiyyətlə, mövcud olmaya bilər. Nəzərə alsaq ki, sərtdərili heyvanların əksəriyyəti yeyilməsi haram heyvanlardır, hansısa bir qida məhsulunun tərkibində bu heyvanların hissələrindən olub-olmadığına şəkk etdiyimiz təqdirdə, bu məhsuldan istifadə etmək iradlıdırmı?
2) Əti haram dəniz heyvanlarının kürüsünü yeməyin hökmü nədir?

**Cavab:**

**1) Hansısa bir qida məhsulunda yeyilməsi haram heyvanın hissələrindən istifadə edildiyinə yəqinliyiniz olmadığı təqdirdə, ondan istifadə etməyinizin iradı yoxdur.**
**2) Onu yemək icazəli deyildir.**

## Dəniz bitkiləri

**58. Sual:** Dəniz bitkilərindən istifadə etmək icazəlidirmi?

**Cavab: İradı yoxdur.**

## Dəniz sədəfi və ondan hazırlanan məhsullar

**59. Sual:** Dəniz sədəfinin yeyilməsi halaldırmı?

**Cavab: Halal deyildir.**

## Balıq sendviçi və balıq konservi

**60. Sual:**
1) Qeyri-islami restoranlarda və ya qeyri-müsəlmanın verdiyi qonaqlıqda balıqdan hazırlanan yeməkləri yemək olarmı? Belə ki, balığın sudan diri tutulduğunu, yoxsa ölü çıxarıldığını bilmirik.
2) Qeyri-müsəlmanların bəzi böyük və çoxsayda filialı olan kafelərində pulcuqlu balığın ətindən hazırlanan sendviçlər satılır, amma biz bu balığın sudan çıxarıldıqdan sonra can verdiyini yəqinliklə bilmirik. Bu balığın ətindən yemək olarmı? Qeyd edək ki, bu balıqlar, adətən, dənizdən sənaye balıq ovu şəklində tutulur, yaxud balıqbecərmə hovuzlarından tutulur və onların sudan çıxarıldıqdan sonra can verməsi ehtimalı daha yuxarıdır. Amma bunu yəqinliklə bilmirik. Satıcı da qeyri-müsəlmandır.
3) Qeyri-müsəlman ölkələrində satılan tuna balığının konservlərindən istifadə etmək olarmı?
4) Qeyri-müsəlmanlara aid olan mağaza və restoranlarda aşpazların və xidmət göstərənlərin hamısının qeyri-müsəlman olduğunu nəzərə alaraq, oranın qeyri-ət yeməklərindən, məsələn, tərəvəz yeməklərindən, düyü yeməyindən və s.-dən yemək olarmı?

**Cavab:**

**1-4) Ümumiyyətlə, ət yeməklərində istifadə olunan ətin – istər dəniz heyvanlarının, istərsə də quruda yaşayan heyvanların əti olsun – şəri kəsim olduğu dəqiqləşməyənədək, onlardan istifadə etmək icazəli deyildir. Qeyri-ət yeməklərinin isə napaklığına və haramlığına yəqinlik olmayanadək, onlardan istifadə etməyin iradı yoxdur.**

## Sədəfin və xərçəngin qaynadılaraq suyundan istifadə edilməsi

**61. Sual:** Əgər yeyilməsi haram olan, amma eyni zamanda pak olan şeyi, məsələn, sədəf və xərçəngi suda qaynadıb sonra onun özünü atmaq və suyunu içmək olarmı?

**Cavab: Bir şeyin suda qaynadılaraq alınan bulyonu, elə həmin şey hökmündədir. Suala əsasən, bu bulyonu içmək haramdır.**

## Haram ətin qızardıldığı yağda qızardılan balıq

**62. Sual:** Mən Kanadada yaşayıram. Restoranların (məsələn, Mc.Donald`s restoranının) menyusunda balıq yeməkləri də vardır. Balıq, bildiyimiz qədər, haram deyildir. Amma balıq halal olmayan ətlərin (məsələn, şəri kəsim olmayan ətin) qızardıldığı yağda qızardıla bilər. Bilmək istəyirdim ki, bu balığı yemək halaldır, yoxsa yox?

**Cavab: Əgər balığın diri tutulduğuna yəqinliyiniz vardırsa, onu qeyri-müsəlman şəxs tutmuş olsa belə, bu balığı yeməyin iradı yoxdur. Əks halda, onu yemək haramdır. Həmçinin halal balığın napak bir ətin (sıçrayan qanı olan və şəri kəsim olmayan heyvanın ətinin) qızardıldığı yağda qızardıldığını yəqinliklə bilsəniz, bu balıq napak olur və onu yemək haramdır. Amma buna şəkk etdiyiniz təqdirdə, balıq pakdır və onu yeməyin iradı yoxdur.**

## Dərmanın və ya qida məhsulunun tərkibində spirtin olması

**63. Sual:** **Müəyyən müddət saxlanılması və təzə qalması üçün tərkibində içməyə qabil olmayan spirtin mövcud olduğu dərmanları və ya qida məhsullarını istifadə etmək icazəlidirmi?**

**Cavab: Əgər onların tərkibinə vurulan spirtin məstedici içki növündən olması məlum olmazsa, onlardan istifadə etməyin iradı yoxdur. Amma əgər bu spirtin məstedici içki növündən olduğunu bilsəniz, dərman və ya qida məhsulu məstedici olduğu təqdirdə, ondan istifadə etmək haramdır. Məstedici olmadığı təqdirdə, onlardan istifadə etmək ehtiyata görə, icazəli deyildir. Yalnız o halda icazəlidir ki, müalicə zəruridir və halal olan başqa bir müalicə yolu da yoxdur. Bu halda da onlardan istifadə etdikdən sonra, ehtiyat-vacibə görə, əl, ağız və dərmanın təmasda olduğu yerlər suya çəkilib paklanmalıdır.**

## Qida yağları

**64. Sual:** **Qeyri-müsəlman ölkələrində istehsal edilən bəzi yağların xammalı məlum deyildir. (Bu xammal ya şəri kəsim olduğuna dair məlumatımız olmayan heyvanlardan, ya da əti halal heyvanların südündən alınır.) Bu yağların paklıq və halallıq baxımından şəri hökmü nədir?**

**Cavab: Əgər qida yağları halal və haram olmaqla iki qismə ayrılarsa və siz də istifadə etmək istədiyiniz yağın hansı qisimdən olduğunu bilməsəniz, bu yağı istifadə etməyinizin iradı yoxdur.**

## Hazır yeməklərin təqdim olunduğu restoranlar

### Müsəlman şəxsin restoranının yeməyindən istifadə etmək

**65. Sual:** Əgər qeyri-müsəlman bir ölkəyə etdiyim səfərdə sahibi müsəlman olan bir restoran qarşıma çıxsa, bu restoranın yeməkləri barəsində araşdırma aparmalıyammı? Qeyd edim ki, restoran müsəlmanların məskunlaşdığı məhəllədə yerləşir.

**Cavab: Restoranın ət yeməkləri üçün qeyd edək ki, əgər restoranın müsəlman sahibi hazırladığı ət yeməklərini halal bilirsə və bu yeməklərlə halal yemək kimi davranırsa, onları yemək icazəlidir. Əks halda, yeməkdə istifadə edilən ətin halallığı sübuta yetməyənədək, bu yeməkdən istifadə etmək icazəli deyildir. Qeyri-ət yeməklərinin isə napaklığına və haramlığına yəqinlik olmayanadək, onları yeməyin iradı yoxdur.**

### Paklığa əhəmiyyət verməyən müsəlman restoranının yeməkləri

**66. Sual:** Bəzi müştəriləri qeyri-müsəlman olan və eyni şəkildə xidmət göstərilən müsəlman restoranında yemək yeməyin və çay içməyin hökmü nədir? Qeyd edim ki, restoran sahibi və işçiləri paklıq-napaklıq məsələlərinə əhəmiyyət vermirlər.

**Cavab: Əgər yediyiniz yeməyin və ya istifadə etdiyiniz qabların napak olduğuna yəqinliyiniz yoxdursa, onlardan istifadə etməyinizin iradı yoxdur.**

### Kitab-əhlinin restoranının yeməklərindən istifadə etmək

**67. Sual:** Xarici ölkələrdə aşpazı və işçiləri xristian olan restoranlarda qeyri-ət yeməkləri, məsələn, tərəvəz yeməkləri və yumurta yeyə bilərikmi?

**Cavab: Kitab-əhli napak hesab edilmir, odur ki, halal bir yeməyin napak olduğuna yəqinliyiniz olmadığı təqdirdə, onu yeməyinizin iradı yoxdur.**

### Qonaqlara xidmət göstərən şəxsin təqdim etdiyi yemək

**68. Sual:** Əgər mən qeyri-müsəlman ölkəsinə ezamiyyətə göndərilsəm və orada bizə xidmət göstərən şəxs ətin şəri kəsim olduğunu və ya müsəlmanların bazarından alındığını söyləsə, aşağıdakı iki halda mənim vəzifəm nədir?
1- Bu şəxsin sözünə etibar etdiyim təqdirdə, ət yeməklərindən istifadə edə bilərəmmi?
2- Əgər onun sözünə şəkk etsəm, yenə də bu yeməklərdən istifadə edə bilərəmmi?

**Cavab: Əgər ətin şəri kəsim olduğuna və ya müsəlmanların bazarından alındığına əminliyiniz olarsa, həmin yeməklərdən istifadə etməyinizin iradı yoxdur. Əks halda, buna icazə verilmir.**

### Qeyri-müsəlmanların istehsal etdikləri ərzaqlar

**69. Sual:** Qeyri-müsəlmanların istehsal etdikləri qeyri-ət ərzaqlarından istifadə etmək olarmı?

**Cavab: Əgər qənd, şəkər tozu, peçenye, şokolad, saqqız və s. bu kimi ərzaqların istehsalı zamanı qeyri-müsəlmanın onlarla əl təması olarsa, amma yaş əl ilə təmasda olduğuna və napaklığın sirayət etdiyinə yəqinliyiniz olmazsa, bu ərzaqlar pakdır və onları yeməyin iradı yoxdur.**

**70. Sual:** Mən qeyri-müsəlman ölkəsində yaşayıram və burada qeyri-müsəlmanlarla ünsiyyətdə olmaq, onlarla alış-veriş etmək qaçılmazdır. Onların istehsal etdikləri ərzaqlardan, əlbəttə, haram olmayan (məsələn, qeyri-şəri kəsim heyvanın ətindən olmayan), amma qeyri-müsəlman şəxslərin yaş əl ilə təmasda olduqları ərzaqlardan istifadə etməyin hökmü nədir?

**Cavab: Kitab-əhli olmayan kafirin bu ərzaqlarla yaş əl ilə təmasda olduğuna yəqinliyiniz olmadığı təqdirdə, onlardan istifadə etməyinizin iradı yoxdur.**

**71. Sual: Dini məlum olmayan və işləmək üçün başqa bir ölkədən müsəlman ölkəsinə gələn şəxs ərzaq mağazası açmışdır. Mal satarkən onun bədəni ərzaqlarla təmasda olur. Qeyd edim ki, onun bədənində "keçici yaşlıq" olur. Dini barəsində ondan soruşmaq lazımdırmı?**

**Cavab: Dini barəsində ondan soruşmaq vacib deyildir və ərzaqlar pakdır.**

## Rəsmi və ya qeyri-rəsmi iclaslarda masalara spirtli içkilərin qoyulması

**72. Sual: Bəzi rəsmi iclaslarda açılan ümumi masaya və ya bəzi iştirakçıların – belə ki, onlar adətən qeyri-müsəlman olurlar – masasına spirtli içkilər qoyulur. Bu iclaclarda iştirak etmək üçün ezam olunan heyət də bəzən bu masaların başında əyləşmək məcburiyyətində qalır. Bu halda ezam olunan heyətin vəzifəsi nədir? Məlum məsələdir ki, onlar spirtli içkilərdən istifadə etmirlər. Bir daha vurğulayıram ki, iclas rəsmi iş iclasıdır (qonaqlıq deyildir) və ezam olunan heyətin bu iclası tərk etməsi ezamiyyətin hədəfinə ziddir.**

**Cavab: Spirtli içkilərin içildiyi məclisdə iştirak etməyə icazə verilmir. Məcbur qaldıqda, zərurət miqdarı ilə kifayətlənmək lazımdır.**

## Donuz ətinin yeyildiyi süfrədə əyləşmək

**73. Sual: Donuz ətinin yeyildiyi süfrədə əyləşib yemək yeməyin hökmü nədir?**

**Cavab: Əgər sizin yediyiniz yemək halal və pak ərzaqlardan hazırlanıbsa, həmçinin napak bir şeylə təmasda olmayıbsa, bu süfrədə əyləşməyinizin maneəsi yoxdur.**

## Kənd pendiri

**74. Sual: Xarici ölkələrdə səfərdə olarkən kənd pendiri yeməyin hökmü nədir?**

**Cavab: Əgər bu pendirin napak və haram olduğuna yəqinliyiniz olmazsa, pak və halal hökmündədir.**

## Spirtlər

**75. Sual: Ağ və sarı spirti içmək icazəlidirmi?**

**Cavab: İcazəli deyildir.**

## Spirtsiz içkilər

**76. Sual: Qeyri-müsəlman ölkələrində spirtsiz içkilərin hökmü nədir?**

**Cavab: Bu içkilərin napaklığına yəqinliyiniz olmadığı təqdirdə, onlar pak və halaldır.**

## Tərkibində spirt olan qidalar

**77. Sual: Xarici ölkələrdə bəzi qidaların (şokoladların və müxtəlif növ içkilərin) tərkibində 3-5 faizli spirt olur. Bu qidalardan istifadə etməyin hökmü nədir?**

**Cavab: Əgər bu qidaların tərkibindəki spirt məstedici içki növündən olsa, onlardan istifadə etmək haramdır və ehtiyat-vacibə görə, onlar napakdır. Amma əgər bu spirtin məstedici olduğuna şəkkiniz olarsa, bu qidalar pak və halaldır.**

## Xarici ölkələrin istehsalı olan içkilər

**78. Sual:** Xarici ölkələrin istehsalı olan içkiləri içmək olarmı?

**Cavab: Pak və halal olan, eyni zamanda kafirin bədəni ilə və ya başqa bir "nəcasət" ilə təmasda olduğu məlum olmayan içkiləri içməyin maneəsi yoxdur.**

**79. Sual:** Xarici istehsal olan və spirtsiz, yaxud əksər hallarda tərkibində olduqca az miqdarda (məsələn, 0,10%) spirt olan arpa suyunun hökmü nədir? Əgər spirtin miqdarı bundan da az olsa, bu halda hökm nədir? Qeyd edim ki, bu içkinin məstedici olmadığı tamamilə məlumdur. Həmçinin bu arpa suyunun tərkibindəki spirt kənardan ona əlavə olunmur, əksinə, istehsal prosesi zamanı öz-özünə yaranır. Daha sonra bu spirt preslənmə nəticəsində ondan xaric olunur və onun tərkibində çox az faiz spirt qalır.

**Cavab: Əgər arpa suyunun istehsal prosesinin heç bir mərhələsində bu içki "məstedici içki" həddinə çatmırsa və ya bu həddə çatdığı dəqiq deyildirsə, bu içki halal hökmündədir və onu içməyin iradı yoxdur.**

## Narkotik maddələr və siqaret

**80. Sual:** Siqaret çəkməyin hökmü nədir?

**Cavab: Əgər siqaret çəkməyin ciddi ziyanı olarsa və ya başqalarının əziyyət çəkməsinə səbəb olarsa, buna icazə verilmir.**

**81. Sual:** Həşiş, tiryək, heroin, morfi, marixuana və s. narkotik maddələri çəkmək, içmək, yemək, damara vurmaq və şam şəklində istifadə etməyin hökmü nədir?

**Cavab: Narkotik maddələrdən istifadənin ziyanlarını, o cümlədən ciddi fərdi və ictimai ziyanlarını nəzərə alaraq, onlardan istifadə etmək haramdır.**

## Əti halal və haram heyvanlar

**82. Sual:** Quruda yaşayan heyvanlardan hansının yeyilməsi halal və hansının yeyilməsi haramdır?

**Cavab: Quruda yaşayan heyvanlar iki dəstəyə ayrılır: Ev heyvanları və çöl heyvanları.**
**1) Ev heyvanlarından olan qoyun, inək və dəvənin əti halaldır. At, qatır və uzunqulağın əti məkruhdur. At ətinin məkruhluğu digərləri ilə müqayisədə daha azdır. Amma bundan qeyri ev heyvanlarının, məsələn, it və pişiyin əti haramdır.**
**2) Çöl heyvanlarından olan ceyran, öküz, dağkeçisi, çöleşşəyi və maralın əti halaldır. Yırtıcılıq xüsusiyyətinə malik olub caynağı və qüvvətli kəsici dişi olan yırtıcı çöl heyvanlarının, məsələn, şir, bəbir və canavarın əti, həmçinin zəif kəsici dişi olan yırtıcı çöl heyvanlarının, məsələn, tülkü, kaftar və çaqqalın əti haramdır.**
**Dovşanın əti də haramdır, baxmayaraq ki, yırtıcı deyildir. Həmçinin bütün sürünənlər, gəmiricilər və həşəratlar haramdır, o cümlədən ilan, siçan, kərtənkələ, qurbağa, kirpi, tarakan, cırcırama, qara böcək, birə, bit və s. haramdır. Həmçinin məsx olunmuş heyvanların əti, o cümlədən fil, meymun və ayının əti haramdır.**

## Quşlar

**83. Sual:** Əti halal və əti haram quşları ayırd etməyin meyarı nədir?

**Cavab: Ümumiyyətlə, bu iki xüsusiyyətə malik olan quşun, istər dəniz quşları olsun, istərsə də quruda yaşayan quşlar olsun, əti halaldır:**
**1- Uçarkən daha çox qanad çalan, yəni ov edən quşlar kimi uçarkən daha çox süzməyən quşların əti halaldır. Amma uçarkən daha çox süzən quşların, məsələn, qartalın əti**

**haramdır.**
**2- Çinədanı, ya pətənəyi və ya ayağının arxasında tikanaoxşar çıxıntısı olan quşların əti halaldır. Amma əgər bir quşun bu üç üzvdən heç biri olmazsa, onun əti haramdır.**

## Paklıq və napaklıq məsələləri

### Qeyri-müsəlmanın yuduğu paltar

**84. Sual: Xarici ölkələrdə camaşırxanaya və quru təmizləməyə verilən paltarların paklıq baxımından hökmü nədir? Qeyd edək ki, paltarların yuyulması və təmizlənməsi xidməti göstərən bu yerlərə xristian və yəhudi dininə mənsub olan şəxslər də öz paltarlarını verirlər. Həmçinin bilirik ki, paltarların yuyulması üçün kimyəvi maddələrdən istifadə olunur.**

**Cavab: Əgər camaşırxanaya və quru təmizləməyə verilən paltar əvvəlcədən napak deyildisə, yuyulduqdan sonra da pakdır. Xristian və yəhudi dininə mənsub olan şəxslərin paltarları ilə təmasda olması paltarın napaklığına səbəb olmur.**

**85. Sual: Əgər bir paltarı kitab-əhli olmayan kafir şəxs yusa və Günəşin altında qurutsa, bu paltar pakdırmı?**

**Cavab: Kitab-əhli olmayan kafir napakdır və "keçici yaşlıq" vasitəsilə onun təmasda olduğu paltar napakdır.**

**86. Sual: Sahibi qeyri-müsəlman olan quru təmizləməyə verilən paltarın paklıq baxımından hökmü nədir? Qeyd edim ki, quru təmizləmədə sudan istifadə edilmir və xristian və yəhudi dininə mənsub olan şəxslər də öz paltarlarını ora verirlər.**

**Cavab: Əgər siz quru təmizləməyə pak paltar versəniz, paltarı təhvil aldıqda da o, pakdır. Yalnız o halda paltar napak hesab olunur ki, paltarın napak bir şeylə "keçici yaşlıq" vasitəsilə təmasda olduğuna yəqinliyiniz olsun. Amma əgər quru təmizləməyə napak paltar versəniz, bu paltarın pak hesab olunması üçün onun lazımi şərtlər daxilində su ilə paklandığına yəqinliyiniz olmalıdır.**

### Paklıq məsələlərinə əhəmiyyət verməyən insanlarla ünsiyyət

**87. Sual: Paklıq və napaklıq məsələlərinə riayət etməyən insanlarla ünsiyyətdə olmağın hökmü nədir?**

**Cavab: Ümumiyyətlə, bir şeyin napak olduğuna yəqinlik olmayanadək, bu şey pak hökmündədir.**

### Namaz qılmayan müsəlman şəxs ilə ünsiyyət

**88. Sual: Biz bir neçə dost bir evi kirayə götürmüşük. Gördük ki, dostlardan biri namaz qılmır. Nə üçün namaz qılmadığını ondan soruşduqda dedi ki, Mütəal Allaha qəlbən inanır, amma namaz qılmır. Onunla bir yerdə yemək yediyimizi və daim ünsiyyətdə olduğumuzu nəzərə alaraq, biz onu napak hesab etməliyikmi?**

**Cavab: Namaz, oruc və şəriətin digər vacib ibadətlərini tərk etmək müsəlman şəxsin mürtəd olmasına səbəb olmur. Onun mürtəd olduğu, yəni dindən döndüyü dəqiqləşməyənədək, o da başqa müsəlmanlar hökmündədir və pakdır.**

### Xəstəxananın avadanlıqları

**89. Sual: Mən cərrahiyyə əməliyyatı üçün xarici ölkənin xəstəxanalarından birinə getmək məcburiyyətində qaldım. Xəstəxananın çarpayısı napakdırmı? Xəstəxananın özünün paklıq və napaklıq baxımından hökmü nədir?**

**Cavab: Onların napak olduğuna yəqinlik olmayanadək, pak hökmündədirlər.**

### Ümumi nəqliyyat vasitələri

**90. Sual: Mən qeyri-müsəlman bir ölkədə yaşayıram. Yağış yağarkən ümumi nəqliyyatdan istifadə edə bilərəmmi?**

**Cavab: Kitab-əhli olmayan ölkələrdə yağış yağarkən paltar və bədən islandığı təqdirdə, nəqliyyat vasitəsinin oturacağının napak olduğuna yəqinlik olmayanadək orada əyləşdikdə bədən və paltar napak olmur.**

**91. Sual: Həm müsəlmanların, həm də qeyri-müsəlmanların istifadə etdikləri avtomobil və qatarın oturacaqları pakdırmı? Belə ki, havanın yüksək temperaturu bədənin tərləməsinə və hətta yaşlığın bu oturacaqlara sirayət etməsinə səbəb olur.**

**Cavab: Kitab-əhli olan kafir pak hökmündədir. Hər bir halda, həm müsəlmanların, həm də kafirlərin istifadə etdikləri əşyaların napak olduğunu bilməyənədək, bu əşyalar pak hökmündədirlər.**

## Kitab-əhli ilə ünsiyyət

**92. Sual: "Kitab-əhli" dedikdə, kimlər nəzərdə tutulur? Onlarla ünsiyyətin hüdudlarını müəyyən edən meyar nədir?**

**Cavab: "Kitab-əhli" dedikdə, ilahi dinlərdən birinə iman gətirən və ilahi peyğəmbərlərdən (ə) birinin ardıcılı olan şəxslər nəzərdə tutulur, məsələn, yəhudilər, xristianlar, zərdüştlər və sabiilər. İslam qanunları və əxlaqı çərçivəsində kitab-əhli ilə ünsiyyətdə olmağın iradı yoxdur.**

## Qonağın ev sahibinə napaklıq barədə məlumat verməsi

**93. Sual: Əgər qonaq ev sahibinin əşyalarından birini napak etsə, bu barədə ev sahibinə məlumat verməlidirmi?**

**Cavab: Əgər qonaq bilsə ki, həmin əşya yemək yeyərkən və maye içərkən istifadə ediləcəkdir, bu halda ona bu barədə məlumat verməlidir. Həmçinin paklığın şərt olduğu hallarda (məsələn, qonaq "az su" ilə dəstəmaz almaq üçün istifadə edilən qabı napak etsə), ehtiyata görə, məlumat vermək vacibdir. Bundan qeyri hallarda məlumat vermək vacib deyildir.**

## Qeyri-müsəlmanın evində qalmaq

**94. Sual: Bizim yaşadığımız məntəqədə əhalinin əksəriyyəti buddistdir. Əgər müsəlman bir şəxs onların hotelində qalsa və ya evini icarəyə götürsə, evin və onun daxilindəki əşyaların paklıq baxımından hökmü nədir? Qeyd edək ki, bu məntəqədəki evlərin əksəriyyəti taxtadan tikilib və yuyulmağa qabil deyildir.**

**Cavab: Əgər kitab-əhli olmayan kafirin yaş əl və bədən ilə sizin istifadə etmək istədiyiniz əşyalarla təmasda olduğuna yəqinliyiniz olmazsa, bu əşyalar pakdır. Amma əgər evin və ya əşyaların napak olduğuna yəqinliyiniz olsa, qapı və divarı, evin daxilindəki əşyaları – hansı ki, onlardan istifadə etmirsiniz – suya çəkmək vacib deyildir. Yalnız yemək və içmək, həmçinin namaz qılmaq üçün istifadə etdiyiniz əşyaları suya çəkməlisiniz.**

**95. Sual: Qeyri-müsəlmanların restoranlarındakı qab-qacaqdan, o cümlədən stəkan, qaşıq və bu kimi qablardan istifadə edə bilərəmmi?**

**Cavab: Restoranlarda olan qab-qacaqların, o cümlədən qaşıq-çəngəlin, boşqabların, stəkanların və başqa qabların napak olduğuna yəqinliyiniz olmadığı təqdirdə, onlar pakdırlar.**

**96. Sual: Əgər müsəlman bir şəxs həm müsəlmanların, həm də qeyri-müsəlmanların paltarlarını ütüləyirsə, bizim ona ütüləmək üçün verdiyimiz paltarların paklıq baxımından hökmü nədir?**

**Cavab: Bu paltarlar pakdır. Onların napak bir şeylə təmasda olduğuna əminliyiniz olduğu**

**təqdirdə, onlar napak hesab olunur.**

## Pak bir əşyanın napak olması

**97. Sual:** **Biz elə bir məntəqədə yaşayırıq ki, oranın əhalisi ya kafirdir və paklıq-napaklıq məsələlərini qəbul etmirlər, ya da müsəlmandır, amma paklıq-napaklıq məsələlərinə əhəmiyyət vermirlər və bu məsələlərə riayət etmirlər. Bu halda bizim vəzifəmiz nədir?**

**Cavab: Bir şeyin napak olduğuna yəqinliyiniz olmayanadək həmin şey pakdır.**

## Sidiyin xaric olduğu yeri paklamağın qaydası

**98. Sual:** **Sidiyə çıxdıqdan sonra sidiyin xaric olduğu yer neçə dəfə yuyulduqda paklanır?**

**Cavab: Sidiyin xaric olduğu yer "kürr su" ilə bir dəfə yuyulduqda paklanır. "Az su" ilə isə ehtiyat-vacibə görə, iki dəfə yuyulduqda paklanır.**

## Nəcisin xaric olduğu yeri paklamağın qaydası

**99. Sual:** **Nəcisin xaric olduğu yeri tualet salfeti ilə təmizləmək kifayət edirmi?**

**Cavab: Nəcisin xaric olduğu yeri iki şəkildə paklamaq olar. Birincisi odur ki, nəcis aradan gedənədək həmin yer su ilə yuyulur və nəcis aradan getdikdən sonra daha oranı suya çəkmək lazım deyildir. İkincisi odur ki, üç ədəd daş, parça, tualet salfeti və bu kimi şeylərlə nəcis həmin yerdən təmizlənir. Əgər üç daş, parça və s. ilə nəcisi təmizləyib aradan aparmaq mümkün olmazsa, əlavə daş, parça və s. istifadə olunur və nəcis tam təmizlənir. Üç ədəd daş, parça və s. əvəzinə bir daşın, parçanın və s.-nin üç yerindən istifadə etmək olar.**

## Namazın hökmləri və şərtləri

**100. Sual:** **Namaza səhlənkar yanaşan və ya namazı bilərəkdən qılmayan şəxsin hökmü nədir?**

**Cavab: Gündəlik beş namaz İslam şəriətinin çox mühüm vacib əməllərindəndir, hətta dinin sütunudur. Namazı bilərəkdən qılmamaq və ya namaza səhlənkar yanaşmaq şəri baxımdan haramdır və buna görə insanı cəza gözləyir.**

**101. Sual:** **Qeyri-müsəlman ölkələrinə olan bəzi iş ezamiyyətlərində müəyyən səbəblərə görə, məsələn, iş və ya təhlükəsizliyə görə namaz qılmaq imkanı olmur. Bu halda ezam olunan şəxslərin vəzifəsi nədir?**

**Cavab: Namaz heç bir halda insanın üzərindən götürülmür. Ezamiyyət elə bir şəkildə təşkil olunmalıdır ki, namazı adi qaydada qılmaq mümkün olsun. Əgər namazı adi qaydada qılmaq mümkün olmazsa, mümkün olan şəkildə qılmaq lazımdır.**

## Namazların vaxtı

**102. Sual:** **İran İslam Respublikasının xarici ölkələrdə yerləşən səfirlikləri və konsulluqlarında ölkələrin paytaxtları və böyük şəhərlərinin namaz vaxtlarını əks etdirən cədvəllər təqdim olunur. Bu cədvəllərə nə qədər etibar etmək olar?**

**Cavab: Namaz vaxtının daxil olduğuna insanın özünün əminliyi olmalıdır. Əgər bir şəxsdə bu cədvəl əsasında namazın vaxtının daxil olduğuna dair əminlik yaranmazsa, o, namaz vaxtının daxil olduğuna yəqin edənədək gözləməlidir.**

**103. Sual:** **Əgər xarici ölkələrə səfər zamanı namazın vaxtının nə zaman daxil olduğunu bilməsək, nə etməliyik?**

**Cavab: Namazın şəri vaxtının daxil olduğuna yəqin edənədək gözləməlisiniz.**

## Qiblənin hökmləri

**104. Məsələ:** Namaz qılan şəxsin qiblə istiqaməti barəsində yəqinliyi və ya əminliyi olmalıdır. Bu yəqinlik və ya əminlik düzgün və etibarlı qiblənüma vasitəsilə, yaxud Günəşin və ulduzların işıq saçması yolu ilə (əlbəttə, bu yoldan istifadə edən şəxsin bu barədə məlumatı və bacarığı olmalıdır), yaxud da başqa yollar vasitəsilə yarana bilər. Əgər bir şəxs qiblənin hansı istiqamətdə olduğuna əmin ola bilməsə, böyük ehtimal etdiyi istiqamətə namaz qılmalıdır. Məsələn, məscidlərin mehrabına əsaslanaraq yaranan ehtimala müvafiq əməl edə bilər.

**105. Məsələ:** Əgər bir şəxs qiblə istiqamətini araşdırdıqdan sonra yenə də qiblə istiqamətini səhv təyin edərsə, qiblədən sağ və ya sol tərəfəyayınma doxsan dərəcədən az olduğu təqdirdə, bu şəxsin namazı düzgündür. Əgər o, namaz əsnasında bu səhvi başa düşərsə, namazın qalan hissəsini qiblə istiqamətinə qılmalıdır. Bu hökm baxımından namaz vaxtının geniş olub-olmamasının bir fərqi yoxdur.

**106. Sual:** Əgər bir şəxs elə bir şəraitdə olsa ki, qiblə istiqamətini ümumiyyətlə bilməsə və heç bir tərəf barəsində də ehtimalı olmasa, namaz qılmaq üçün bu şəxs nə etməlidir? O, hansı istiqamətə namaz qılmalıdır?

**Cavab: Ehtiyat-vacibə görə, o, dörd istiqamətə namaz qılmalıdır. Əgər dörd namaz qılmaq üçün kifayət qədər vaxt olmazsa, hansı sayda namaz qılmaq üçün vaxt vardırsa, o sayda namaz qılmalıdır.**

**107. Sual:** Təyyarədə hansı istiqamətə namaz qılmalıyıq?

**Cavab: Əgər qiblə istiqamətini, hətta təyyarə işçilərindən soruşaraq belə, təyin edə bilməsəniz və təyyarə eniş edənədək namazı yubatdığınız təqdirdə namaz qəza olacaqdırsa, qiblə olduğunu ehtimal etdiyiniz istiqamətə namazı qılın. Amma əgər qiblə istiqaməti barəsində şəkkiniz olsa və namaz vaxtı da geniş olsa, ehtiyat-vacibə görə, dörd istiqamətə namazı qılmalısınız. Namaz vaxtı dar olduğu təqdirdə isə hansı sayda namaz qılmaq imkanı vardırsa, o sayda namaz qılın.**

**108. Sual:** Əgər təyyarədə bədən hərəkətsiz vəziyyətdə namaz qılmaq mümkün olsa, həmçinin namazın digər şərtlərinə, məsələn, qiyama, rükuya və səcdələrə riayət etmək mümkün olsa, amma qiblə istiqamətini təyin etmək mümkün olmasa, təyyarədə namaz qılmaq olarmı? Bu halda insanın vəzifəsi nədir?

**Cavab: Əvvəlki sualın cavabına müvafiq şəkildə əməl edilməlidir.**

**109. Sual:** Bildiyimiz kimi, ayaqyolunda bədənin qabaq hissəsi, yəni sinə və qarın nahiyəsi, yaxud bədənin arxa hissəsi qiblə tərəfə olmamalıdır. Xarici ölkələrdə bəzi hotellər, restoranlar və başqa məkanlarda ayaqyolunun inşasında bu məsələyə riayət olunmadığını nəzərə alaraq, bizim vəzifəmiz nədir?

**Cavab: Əgər şəxs qiblə istiqamətini bilirsə, bu məsələyə riayət etməlidir.**

**110. Sual:** Qatarın ayaqyolunda qiblə istiqamətinə riayət etmək çətindir, çünki qatar hərəkət istiqamətini dəyişir. Bu halda insan ayaqyoluna gedərkən qiblə istiqamətini təyin etməlidirmi?

**Cavab: Bəli, qiblə istiqamətini təyin etmək lazımdır. Əgər qiblə istiqamətini təyin etmək mümkün olmasa və ayaqyoluna getməmək insan üçün çətinlik yaratsa, o, ayaqyoluna gedə bilər. Amma əgər hansısa bir istiqamətin qiblə olduğunu ehtimal edərsə, bu ehtimala müvafiq şəkildə əməl etməlidir.**

**111. Sual:** Əgər ayaqyolunun istiqaməti qiblə istiqamətindən yalnız 20-22 dərəcə fərq etsə və bunu ayaqyolundan bir müddət istifadə etdikdən sonra başa düşsək, ayaqyolunun çanağının istiqamətini dəyişməliyikmi?

**Cavab: Əgər qiblənin sağ və ya sol tərəflərinə yönəlmə "qiblədən yayınma" adlanacaq**

**dərəcədə olarsa, bu, kifayət edir və iradı yoxdur.**

## Qiblə istiqamətini təyin etməyin çətin olduğu məkan

**112. Sual:** **Əgər Kəbə evinin Yer kürəsindəki müqabil nöqtəsi təyin olunsa, belə ki, Kəbənin üstündən şaquli şəkildə çəkilən xəyali xətt Yer kürəsinin mərkəzindən keçərək digər tərəfdən çıxsa, bu nöqtədə qiblə istiqamətinə necə riayət olunmalıdır?**

**Cavab: Üzü qibləyə dayanmağın meyarı, insanın Yer kürəsinin səthində üzü Kəbəyə tərəf (Məkkədə yerləşən Allah evinə tərəf) dayanmasıdır. Beləliklə, əgər insanın sakini olduğu məntəqənin dörd bir tərəfindən xəyali düz xətlər Yer kürəsinin səthi ilə Məkkəyə tərəf çəkilərsə və uzunluq baxımından bu xətlər bir-birinə bərabər olarsa, insan qiblə üçün istədiyi tərəfə dayana və namaz qıla bilər. Amma əgər bu xətlərin uzunluğu bəzi istiqamətlərdə az və daha qısa olarsa, belə ki, bu xətlərin uzunluqları arasındakı fərq, ürfdə “üzü qibləyə” adlanmaq baxımından ixtilafa səbəb olarsa, insana daha qısa istiqaməti seçmək vacibdir.**

## Namaz məkanı

### Namaz məkanının paklığı

**113. Sual:** Əgər bir şəxsin namaz qıldığı məkan pak olmasa, amma səcdə yeri pak olsa, namaz düzgündürmü?

**Cavab: Əgər namaz qıldığı məkanın napaklığı onun paltarına və ya bədəninə sirayət etməsə, bunun iradı yoxdur.**

### Nəqliyyat vasitələrində namaz qılmaq

**114. Sual:** Qatarda, təyyarədə və gəmidə namaz qılmağın qaydasını açıqlamanızı xahiş edirəm.

**Cavab: Namaz məkanı hərəkətsiz olduğu və qibləyə riayət edildiyi təqdirdə, sözügedən nəqliyyat vasitələrində namaz qılmağın iradı yoxdur. Amma nəqliyyat vasitəsinin hərəkət istiqamətinin dəyişməsi nəticəsində qiblə istiqaməti dəyişildiyi zaman vacib namazlarda imkan daxilində çevrilərək qiblə istiqamətini qorumaq lazımdır. Əlbəttə, çevrilərkən ayə və zikrləri deməyi dayandırmaq lazımdır. Amma əgər namaz vaxtı dar olarsa, namaz məkanı hərəkətsiz olmasa belə, namazı öz vaxtında qılmaq lazımdır.**

**115. Sual:** Qayıqla iş səfərinə ezam olunan şəxslər namaz vaxtı dar olduğuna görə namazı qayıqda qılmaq məcburiyyətində qaldıqda, namazı necə qılmalıdırlar?

**Cavab: Əvvəlki sualın cavabında açıqlanan qaydada namazı qılmalıdırlar.**

### Namaz məkanının qəsbi olmaması

**116. Məsələ:** Namaz məkanı qəsbi olmamalıdır. Amma əgər bir şəxs namaz qıldığı zaman həmin yerin qəsbi olduğunu bilməsə və ya bunu unutsa, namazdan sonra həmin yerin qəsbi olduğunu xatırlasa belə, onun namazı düzgündür.

**117. Məsələ:** Əgər bir şəxs qəsbi məkanda namaz qılmaq məcburiyyətində qalsa, bunun iradı yoxdur.

# Məscid

## Məsciddə namaz qılmaq

**118. Sual:** **Qeyri-müsəlmanların tikdirdiyi məsciddə namaz qılmaq icazəlidirmi?**

**Cavab: İradı yoxdur.**

## Qeyri-müsəlmanların məscidə göstərdiyi ianə

**119. Sual:** **Əgər qeyri-müsəlman şəxs məscidin inşasına könüllü olaraq maddi köməklik göstərsə və ya başqa bir şəkildə köməklik göstərsə, onu qəbul etmək olarmı?**

**Cavab: İradı yoxdur.**

## Yəhudi və xristian məbədləri

**120. Sual:** **Yəhudilərin və xristianların icazəsi olmadan onların məbədlərində namaz qılmaq olarmı?**

**Cavab: Sinaqoq və kilsədə namaz qılmağın iradı yoxdur. Bunun üçün yəhudilərin və xristianların icazəsi şərt deyildir.**

**121. Sual:** **Yəhudilərin və xristianların məbədlərini napak etməyin hökmü nədir?**

**Cavab: Ehtiyat-vacibə görə, yəhudilərin və xristianların məbədlərini napak etməkdən çəkinmək lazımdır.**

## Namaz paltarı

### Qızıldan istifadə etmək

**122. Məsələ: Kişinin qızıldan toxunan parçadan paltar geyinməsi və ya qızıl işləməsi olan paltar geyinməsi haramdır və onun bu paltarda qıldığı namaz düzgün deyildir. Amma qadının istər namazda, istərsə də qeyri-namazda belə paltar geyinməsinin iradı yoxdur.**

**123. Məsələ: Kişinin qızıl boyunbağı, üzük və qol saatı taxması, hətta az bir müddət (məsələn, toy günü) taxsa belə, haramdır. Həmçinin bəzənmək məqsədilə taxmasa və başqalarından gizlətsə belə, haramdır. Ehtiyat-vacibə görə, kişinin bu qızıl zinət əşyaları ilə namaz qılması da düzgün deyildir.**

### Kişilərin qızıl medal taxması

**124. Sual: Kişilərin qızıl medal taxmasının hökmü nədir?**

**Cavab: Medalın bağı qızıldan olmadığı təqdirdə, kişinin onu taxması icazəlidir və bu, "qızıldan istifadə etmək" adlanmır.**

## Namazın vacib əməlləri

### Səcdə

**125. Sual:** **Mərmər döşənən yerin üzərinə səcdə etməyin hökmü nədir?**

**Cavab: Mərmər daşın üzərinə səcdə etməyin iradı yoxdur.**

## Camaat namazı

**126. Məsələ: Məmum namazın hərəkətlərini imam-camaatla eyni vaxtda və ya imam-camaatdan bir qədər sonra yerinə yetirməlidir. Əgər o, bilərəkdən imam-camaatdan qabağa keçərsə və ya namazın hərəkətlərini imam-camaatdan çox gec olaraq (yəni imam-camaata tabe olmaq hesab olunmayacaq bir şəkildə) yerinə yetirərsə, onun namazı tək halda qılınan namaz olacaqdır.**

**127. Sual: Məmumun imam-camaata tabe olmamasının hökmü nədir?**

**Cavab: Bu iş haram deyildir, amma bu halda məmumun camaat namazı pozulur və o, namazını fərdi şəkildə davam etdirməlidir.**

### Camaat namazı təşkil edildiyi zaman fərdi namaz qılmaq

**128. Sual: Bəzi şəxslər camaat namazı təşkil olunmasına rəğmən fərdi şəkildə namaz qılırlar. Bu əməlin hökmü nədir?**

**Cavab: Əgər bu əməl camaat namazını zəiflətmək və ya imam-camaata qarşı hörmətsizlik hesab olunarsa, buna icazə verilmir.**

## Cümə namazı

### Müsafir şəxsin cümə namazında iştirak etməsi

**129. Sual:** **Əgər mən səfərdə olsam və cümə namazında iştirak etmək istəsəm, namazımın hökmü nədir? Cümə namazı qıla bilərəm, yoxsa zöhr namazını qılmalıyam?**

**Cavab: Müsafir olsanız belə, cümə namazı ilə zöhr namazı arasında seçim edə bilərsiniz və cümə namazı zöhr namazını əvəz edir.**

# Qəza namazı

**130. Məsələ:** **Vacib namazı öz vaxtında qılmadıqda, onun qəzasını qılmaq lazımdır.**

## Səfərdə qəza namazı qılmaq

**131. Məsələ:** **Səfərdə oruc tutmaq, hətta qəza orucu tutmaq belə, olmaz. Amma səfərdə qəza namazı qılmaq olar.**

**132. Məsələ:** **Əgər bir şəxs öz vətənində qəza etdiyi namazları səfərdə qılmaq istəsə, zöhr, əsr və işa namazlarının qəzasını dörd rəkət olaraq qılmalıdır.**

## Səfərdə qəza olan namaz

**133. Məsələ:** **Namazı qəsr qılmalı olan müsafir şəxs əgər zöhr, əsr və ya işa namazlarını qəza etsə, onların qəzasını – hətta qeyri-səfərdə qılsa belə – qəsr olaraq qılmalıdır.**

## Qəza namazının vaxtı

**134. Məsələ:** **Qəza namazının xüsusi bir vaxtı yoxdur. Məsələn, sübh namazının qəzasını gündüz və ya gecənin istənilən vaxtında qılmaq olar.**

## Alğı-satqının hökmləri

### Qida məhsullarının paklıq və napaklığını araşdırmaq

**135. Sual:** **Qida məhsullarını alarkən qeyri-müsəlman satıcının və ya istehsalçının onlara toxunduğunu və ya bu məhsulların istehsalında spirtdən istifadə edildiyini araşdırmaq lazımdırmı?**

**Cavab: Soruşmaq və araşdırmaq lazım deyildir.**

**136. Sual:** **Əhalisinin böyük əksəriyyəti müsəlman olan müsəlman ölkəsində ətin halallığı barədə araşdırma aparmaq lazımdırmı?**

**Cavab: Əgər ət müsəlmanların bazarından əldə edilərsə, halaldır və araşdırma aparmaq lazım deyildir.**

### Müsəlmanların və qeyri-müsəlmanların bazarından alınan balıq

**137. Sual:** **Əhli-sünnənin bazarından və ya başqa bazarlardan balıq almaq olarmı? Belə ki, balığın pulcuqlu olduğunu və ya şəri qaydada tutulduğunu bilmirik.**

**Cavab: Əgər balıq müsəlmanların bazarından alınarsa, iradı yoxdur. Amma əgər qeyri-müsəlmanların bazarından alınarsa, balığın sudan diri tutulduğunu və ya balıqçı toruna diri düşdüyünü bildiyiniz təqdirdə, balıq halaldır.**

### Yeyilməsi haram olan balığı qeyri-müsəlmana satmaq

**138. Sual:** **Yeyilməsi haram olan dəniz heyvanlarını və ya yeyilməsi halal olan, amma suda ölən balığı dininə görə bu balığın yeyilməsini halal hesab edən şəxslərə satmaq olarmı?**

**Cavab: Bunun iradı yoxdur.**

### Alğı-satqıda qeyri-müsəlmana qarşı saxtakarlıq etmək

**139. Sual:** **Alğı-satqıda qeyri-müsəlmana yalan danışmağın, onu aldatmağın və ona qarşı saxtakarlıq etməyin hökmü nədir?**

**Cavab: Qarşı tərəf qeyri-müsəlman olsa belə, yalan danışmağa, aldatmağa və saxtakarlığa icazə verilmir.**

**140. Sual:** **Kafirlərlə alğı-satqıda yalan danışmaq və saxtakarlıq etmək olarmı?**

**Cavab: İcazə verilmir.**

### Xarici ölkələrdən mal idxal etmək

**141. Sual:** **Hazırkı dövrdə xarici ölkələrdən geyimlər idxal etmək, onların alğı-satqısı və istifadəsi şəhərlərdə geniş yayılmışdır. Qərb mədəniyyətinin İslam İnqilabına qarşı mədəni basqısını nəzərə alaraq, bu işin hökmü nədir?**

**Cavab: Əgər bu paltarları geyinmək iffətə və İslam əxlaqına zidd olarsa, yaxud İslam mədəniyyətinə düşmən olan qərb mədəniyyətini yaymaq hesab olunarsa, bu geyimlərin idxalı, alğı-satqısı və istifadəsi icazəli deyildir. Bunun qarşısının alınması üçün aidiyyatı qurumlara müraciət etmək lazımdır.**

**142. Sual:** **Dəridən hazırlanan malların, o cümlədən ayaqqabı, papaq və kəmərin alğı-satqısı və istifadəsinin hökmü nədir? Belə ki, onların yaş bədən və ya paltar ilə təmasda olacağı ehtimal olunur.**

**Cavab: Bu malların alğı-satqısının öz-özlüyündə maneəsi yoxdur. Amma paklıq baxımından məsələyə yanaşsaq, əgər bu mallar müsəlmanların bazarından və ya müsəlman ölkələrindən alınıbsa, yaxud müsəlman ölkələrin istehsalıdırsa, onlar pak hökmündədirlər və namazda da onları geyinməyin iradı yoxdur. Əks halda, əgər dərinin şəri kəsim olmayan heyvanın dərisi olduğuna yəqinliyiniz olarsa, bu halda həmin dəri napakdır. Amma əgər heyvanın şəri kəsim olub-olmadığını bilməsəniz, bu halda həmin dəri pakdır. Lakin bu dəridən olan geyimlə namaz qılmaq düzgün deyildir.**

**143. Sual:** **Əgər hansısa bir məhsulu ölkəyə daxil etmək qadağandırsa, onu rəsmi diplomat yükü daxilində (belə ki, rəsmi diplomatların yükü yoxlanışdan keçirilmir) ölkəyə daxil etmək icazəlidirmi?**

**Cavab: Ümumiyyətlə, bu kimi məsələlər aidiyyatı qanunlara tabedir və bu qanunları pozmağa icazə verilmir.**

**144. Sual:** **Qeyri-müsəlman ölkələrindən mal idxal etməyin hökmü nədir?**

**Cavab: Əgər qeyri-müsəlman ölkələrindən mal idxal etmək və onlardan istifadə etmək İslama və müsəlmanlara düşmən kəsilən kafir və istismarçı dövlətlərin güclənməsinə səbəb olarsa, yaxud müsəlmanların ölkələrinə hücum edə bilmələri üçün onların maddi gücünü artırarsa, müsəlmanlara bu malları almamaq və istifadə etməmək vacibdir.**

## Sionistlərə aid şirkətlərlə alğı-satqı

**145. Sual:** **İsrail istehsalı olan məhsulları idxal etmək və onları yaymaq icazəlidirmi? Əgər bu iş məcburiyyətdən irəli gələrsə, bu halda bu məhsulların satışı icazəlidirmi?**

**Cavab: İslamın və müsəlmanların düşməni olan qəsbkar İsrail dövlətinin xeyrinə olan ticarətdən çəkinmək lazımdır. İstehsalından və satışından onların xeyir götürdükləri malları idxal etmək və yaymaq heç kimə icazəli deyildir. Həmçinin İslam və müsəlmanlar üçün yaratdığı fəsadları və onlara vurduğu ziyanları nəzərə alaraq, sözügedən malları almaq müsəlmanlara icazəli deyildir.**

**146. Sual:** **Müsəlman ölkələrində satılan İsrail məhsullarını müsəlmanlar ala bilərlərmi?**

**Cavab: Bütün müsəlmanlara vacibdir ki, istehsalından və satışından İslam və müsəlmanlara qarşı müharibə aparan sionistlərin gəlir götürdükləri malları almaqdan çəkinsinlər.**

## İş ezamiyyətlərində verilən hədiyyələr

**147. Sual:** **Xarici ölkələrə iş ilə əlaqədar ezam olunan şəxslərə verilən hədiyyələrin hökmü nədir? Bu hədiyyələr həmin şəxslərə aiddir, yoxsa beytul-mala aiddir?**

**Cavab: Bu məsələ aidiyyatı qanunlara tabedir. (Bir sıra xüsusi hədiyyələr beytul-mala aiddir.)**

## İslam Respublikasının amallarına qarşı hörmətsizlik sayılan ədəbiyyat

**148. Sual:** **Haqq yoldan azdıran kitabların, o cümlədən "Şeytan ayələri" kitabının alğı-satqısının hökmü nədir?**

**Cavab: Haqq yoldan azdıran kitabların alğı-satqısı və saxlanılması icazəli deyildir. Buna yalnız o halda icazə verilir ki, həmin kitablardakı yanlış düşüncələri cavablandırmağa elmi**

**gücü çatan şəxslərin bu kitablardan istifadə etməyə ehtiyacı vardır.**

**149. Sual:** Müsəlmanlar və qeyri-müsəlmanların bir-birilərinə qan verib-alması icazəlidirmi?

**Cavab: Bunun iradı yoxdur.**

**150. Sual:** Qeyri-müsəlman ölkələrində qan bağışlamaq icazəlidirmi?

**Cavab: Bəli, icazəlidir.**

## Valyuta alğı-satqısı

**151. Sual:** Qeyri-rəsmi bazarda valyuta dəyişmək icazəlidirmi?

**Cavab: Bu iş qanunlara müvafiq şəkildə görülməlidir. Qanunları pozmağa icazə verilmir.**

**152. Sual:** Bəzi şəxslər xaricə səfər etməyən şəxslərin pasportu ilə valyuta alır və onu qara bazarda satırlar. Bu işin iradı vardırmı?

**Cavab: Bu məsələ aidiyyatı qanunlara tabedir.**

**153. Sual:** İran İslam Respublikasının hazırkı iqtisadi durumunu nəzərə alaraq, xarici ölkədən İrana səfər edən şəxslərdən valyuta almağın hökmü nədir?

**Cavab: Valyuta alğı-satqısı İslam dövlətinin qanunlarına müvafiq şəkildə yerinə yetirilməlidir.**

**154. Sual:** Xarici ölkədə yaşayan, amma ailəsi və ya işi İranda olan iranlı və ya qeyri-iranlı şəxslər İranda bu ölkənin valyutasını verib, xarici ölkədə oranın valyutasını ala bilərlərmi?

**Cavab: Əvvəlki sualın cavabı bu sualın da cavabıdır.**

**155. Sual:** Bir şəxsin xarici ölkədə valyutası var və o, bu valyutanın qarşılığında ölkədən pul və ya mal xaric etməyib. O, bu valyuta ilə İranda olan bir evi alğı-satqı edə bilərmi?

**Cavab: Bu məsələ aidiyyatı qanunlara tabedir.**

**156. Sual:** Valyuta mübadiləsi və alğı-satqısı işi barəsində sizin rəyiniz nədir?

**Cavab: Əgər aidiyyatı qanunlara müvafiq olarsa, bu işin öz-özlüyündə maneəsi yoxdur.**

## Qaçaq malın satışı və İslam dövlətinin qanunlarını pozmaq

**157. Sual:** Bəziləri deyirlər ki, alğı-satqısı qeyri-qanuni elan olunan qaçaq mallar silah, narkotika və bu kimi mallardır. Amma parça, paltar və bu kimi qaçaq malların alğı-satqısının iradı yoxdur. Xahiş edirəm, bu məsələ barəsində fikrinizi bildirərdiniz.

**Cavab: Qaçaq malların satışı İslam dövlətinin qanunlarına müvafiq şəkildə olmalıdır. Əgər dövlət buna maneəçilik yaratmırsa və bu mallar bazarda satılırsa, iradı yoxdur.**

**158. Sual:** İslam dövlətinin qanunlarına zidd olan şəkildə xaricdən ölkəyə valyuta daxil edən şəxslər şəri baxımdan bu pulun sahibi olurlarmı, yoxsa yalnız haram iş görürlər?

**Cavab: Bu iş İslam dövlətinin qanunlarına müvafiq şəkildə yerinə yetirilməlidir.**

**159. Sual:** Mən iş üçün xarici ölkələrdən birinə getdim və bir müddət işlədikdən sonra qazandığım pulu qeyri-qanuni şəkildə İran puluna çevirdim. (Belə ki, rəsmi qiymət ilə qara bazar qiyməti arasında bir neçə dəfə fərq var idi.) Mən bu pul ilə ev aldım. Xahiş edirəm ki, bu pulların haram, yoxsa halal olduğunu bildirəsiniz. Bu evdə namaz qılmaq düzgündür, yoxsa düzgün deyildir?

**Cavab: İslam dövlətinin qanunlarını pozmağa icazə verilmir. Amma həmin evdə namaz**

**qılmaq düzgündür.**

## Müxtəlif məsələlər

### Borc almaq və vermək

**160. Sual:** **Müsəlman şəxsin xristian və yəhudi dininə mənsub şəxslərdən, bəhai firqəsinin ardıcıllarından borc alması və ya onlara borc verməsi icazəlidirmi?**

**Cavab: Azğın bəhai firqəsinin ardıcılları istisna olmaqla, digərlərindən borc almaq və ya onlara borc verməyin maneəsi yoxdur.**

### Vəkalət

**161. Sual:** **Mən qeyri-müsəlman bir vəkili özümə vəkil tuta bilərəmmi?**

**Cavab: Əgər məhkəmədə işinə baxılan tərəflərdən biri müsəlman şəxs, digəri qeyri-müsəlman şəxs olarsa, müsəlman şəxs öz haqqının müdafiə olunması və alınması üçün qeyri-müsəlman bir vəkili özünə vəkil tuta bilər. Amma əgər tərəflərdən hər ikisi müsəlman olarsa, müsəlman şəxs başqa bir müsəlmanın əleyhinə çıxış etməsi üçün qeyri-müsəlman vəkili özünə vəkil tuta bilməz.**

### Müvəqqəti izdivac

**162. Sual:** **İş ezamiyyətində olduğumuz yerlərdə müvəqqəti izdivac etməyin hökmü nədir?**

**Cavab: Müxtəlif hallar mövcuddur və bu məsələnin hökmü aidiyyatı qanunlara tabedir.**

### Qeyri-müsəlman şəxsə Quran və ya mübarək adları hədiyyə vermək

**163. Sual:** **Bəzi xarici səfərlərdə təbliğ məqsədilə qeyri-müsəlmanlara Quran hədiyyə verilir. Bunun iradı vardırmı?**

**Cavab: Bu əməl haram deyildir. Amma əgər Qurana və mübarək adlara qarşı hörmətsizlik və ya onların napak olmasına səbəb olarsa, buna icazə verilmir.**

**164. Sual:** **İranlılar bəzən başqa ölkələrin vətəndaşlarına üzərində İran İslam Respublikasının gerbi həkk olunmuş və ya Allahın adı yazılmış hədiyyələr verirlər. Nəzərə alsaq ki, onların bu mübarək kəlmələr ilə bədən təmasında olduğu ehtimal olunur, bu hədiyyələri verməyin hökmü nədir?**

**Cavab: Əgər hörmətsizlik etmək sayılmazsa, bunun maneəsi yoxdur.**

### Günah məclisində iştirak etmək

**165. Sual:** **Günah məclisində iştirak etməyin hökmü nədir?**

**Cavab: Əgər günah məclisində iştirak etmək günah etməyə və ya günahı dəstəkləməyə səbəb olarsa, yaxud da "pis işlərdən çəkindirmək" şəri vəzifəsini yerinə yetirmək bu məclisi tərk etməyə və ya orada iştirak etməməyə bağlı olarsa, bu hallarda həmin məclisdə iştirak etmək olmaz. Şəxs o məclisdə iştirak etdiyi təqdirdə oranı tərk etməlidir.**

**166. Sual:** **Bəzi xarici səfərlərdə təşkil edilən rəsmi qonaqlıqlarda xatirə fotoşəkli çəkilir və xarici ölkələrin qadınları əksər hallarda hicabsız olurlar. Belə olan halda bu fotoşəkli çəkdirmək şəriət baxımından icazəlidirmi?**

**Cavab: Əgər günahı dəstəkləmək və yaymaq hesab olunmazsa, yaxud hansısa bir fəsadı olmazsa, yaxud da günah etmək qorxusu mövcud olmazsa, bu fotoşəkli çəkdirmək**

**icazəlidir.**

**167. Sual:** **Bəzi müsəlmanlar xristianların bayramlarını qeyd edirlər. Bunun iradı vardırmı?**

**Cavab: İsa Məsihin (ə) milad bayramını qeyd etməyin iradı yoxdur, amma elə bir şəkildə qeyd edilməlidir ki, yanlış inancları və ənənələri yaymaq hesab olunmasın.**

**168. Sual:** **Qeyri-müsəlman ölkələrində dövlət əmlakını və ya ayrı-ayrı fərdlərin əmlakını qorumaq vacibdirmi? Onların qanunlarının icazə verdiyi hallardan qeyri hallarda təhsil mərkəzlərinin imkanlarından istifadə etmək olarmı?**

**Cavab: Əmlakın toxunulmazlığı və sahibinin icazəsi ilə əmlakdan istifadə etməyin vacibliyi baxımından müsəlman ilə qeyri-müsəlman arasında, yaxud şəxsi əmlak ilə dövlət əmlakı arasında fərq yoxdur. Həmçinin əmlakın qeyri-müsəlmanların ölkəsində və ya müsəlmanların ölkəsində olması, əmlak sahibinin qeyri-müsəlman və ya müsəlman olması arasında fərq yoxdur. Ümumiyyətlə, sahibinin icazəsi olmadan başqasının əmlakından istifadə etmək şəriət baxımından icazəli deyildir. İcazəsiz istifadə qəsb sayılır və haramdır. İstifadə edən şəxs istifadə etdiyi malı onun sahibinə borcludur.**

**169. Sual:** **Bizim yaşadığımız yerdə bu fikir formalaşıb ki, öz müsəlman əhalisini incidən və onlara zülm edən, xüsusilə də Əhli-beyt (ə) ardıcıllarını təcrid edən qeyri-İslam dövlətinə kommunal xidmətlərin pulunu, o cümlədən su və işıq pulunu ödəmək vacib deyildir. Biz bu dövlətdə su və işıq pulunu ödəməyə bilərikmi?**

**Cavab: Hər kim dövlətin təmin etdiyi sudan və işıqdan istifadə edirsə, onun pulunu ödəməlidir, baxmayaraq ki, dövlət İslam dövləti deyildir.**

**170. Sual:** **Əmlakı toxunulmaz olan qeyri-müsəlmanın malını oğurlamağın hökmü nədir?**

**Cavab: İcazə verilmir.**

## Sirr açmaq

**171. Sual:** **İnsan öz sirrini və xüsusi işini insanlara açıb danışa bilərmi?**

**Cavab: Əgər insanın öz şəxsi işini başqalarına açıb danışmasının hansısa bir şəkildə başqa bir şəxsə və ya şəxslərə də aidiyyatı olarsa, yaxud hansısa bir fəsadı olarsa, buna icazə verilmir.**

## Qanun çərçivəsində insanların şəxsi işlərini araşdırmaq

**172. Sual:** **Biz çox əhəmiyyətli peşələrə kadrlar seçərkən onların şəxsi həyatı və işi barəsində araşdırma aparmaq məcburiyyətindəyik. Onların şəxsi keyfiyyətlərini, dinini, sosial rəftarlarını, hətta onun özünün və ya ailə üzvlərinin azğın firqələrə qoşulmadığını araşdırır, əldə etdiyimiz məlumatları yuxarı vəzifəli məsullara ötürürük. Bu işin və onlar barəsində danışdığımız söhbətlərin hökmü nədir?**

**Cavab: Qanun çərçivəsində araşdırma aparmağın iradı yoxdur. Əks halda, buna icazə verilmir və haramdır.**

## Xarici radioları dinləmək

**173. Sual:** **Yalanların və təxribatların aydınlaşması üçün xarici radioları dinləməyin iradı vardırmı? Qeyd edim ki, bu radioların əksəriyyətində Siz və ölkə Prezidenti açıq-aşkar təhqir edilirsiniz.**

**Cavab: Əgər haqq yoldan azmağa səbəb olarsa və ya hansısa bir fəsadı olacağından qorxu yaranarsa, buna icazə verilmir.**

## Qeyri-müsəlmandan hədiyyə almaq və ona hədiyyə vermək

**174. Sual:** **Qeyri-müsəlmandan hədiyyə almaq və ona hədiyyə verməyin hökmü nədir?**

**Cavab: Bunun öz-özlüyündə maneəsi yoxdur.**

## Kitab-əhli olan kafirə və kitab-əhli olmayan kafirə sahiblənmək

**175. Sual:** **Müsəlman şəxs kitab-əhli olan və ya kitab-əhli olmayan kafir şəxsə – istər kişi olsun, istərsə də qadın olsun – kafirlərin ölkəsində və ya müsəlmanların ölkəsində sahiblənə bilərmi?**

**Cavab: Buna icazə verilmir. Əgər kafirlər müsəlman torpaqlarına hücum etsələr və müsəlmanlar onları əsir götürsə, bu halda əsirlərin taleyi İslam hakiminin ixtiyarındadır. Müsəlmanlar əsirlərin taleyini təyin etmək hüququna malik deyildirlər.**

## Müsəlman ölkəsində yaşayan kitab-əhli

**176. Sual:** **Müsəlman ölkəsində yaşayan kitab-əhli "əhli-zimmə" hökmündədirmi?**

**Cavab: Onlar İslam dövlətinin qanunlarına tabe və dövlətin himayəsində olduqları, habelə onlara verilən amannaməyə zidd hərəkət etmədikləri təqdirdə, "muahid" hökmündədirlər.**